30 iyul 2021 №57 (1834) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Yüz eşitməkdənsə, bir görmək...

Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysərin rəhbərlik etdikləri nümayəndə heyətləri iyulun 29-da Şuşa şəhərinə səfər edib.

Nümayəndə heyətləri Şuşa şəhərindəki bir sıra tarixi və dini-memarlıq abidələrini və digər məkanları ziyarət ediblər.

səh. 3

## Bursada Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans başa çatıb

Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Türkiyənin Bursa şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans iyulun 29-da sona çatıb.

Beynəlxalq konfransın bağlanış mərasimində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu, Bursanın Yıldırım rayon bələdiyyəsinin sədr müavini Yaşar Elmas və başqaları çıxış ediblər.

səh. 2

## Məşhur geoloq haqqında film ilin sonunadək təhvil veriləcək

Mədəniyyət Nazirliyinin "Salnaməfilm" studiyası və "Caspian Media Group"un istehsalı olan "Mən neft tapdım – Salmanov" bioqrafik sənədli filminin çəkilişləri davam edir.

Film dünyanın məşhur neftçi-geoloqu, Azərbaycan xalqının layaqətli oğlu, Sosialist Əməyi Qəhrəmanı, Tümen neftini ilk kəşf edənlərdən biri Fərman Salmanovun 90 illik yubileyinə həsr olunur.

səh. 3

## "Sənətin ardınca gəl"

Rusiyada fəaliyyət göstərən "Fine Art Way" art-logistika şirkəti başladığı yeni layihə ilə dünya şöhrətli azərbaycanlı rəssam Tahir Salahovun xatirəsini yad edib. Rəssamın 1961-ci ildə çəkdiyi monumental "Sənə, başəriyyət!" rəsm əsəri şirkətin incəsənət əsərlərini daşıyan xüsusi avtomaşını üzərində nümayiş etdirilir.

səh. 8




## 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

Azərbaycan dili xalqımızın milli varlığını müəyyən edən sərvətdir. Harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımızın ünsiyyət vasitəsi olan dilimiz tarixən böyük inkişaf yolu keçib, zaman-zaman ən müxtəlif təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlayıb.

Dili, ilk növbədə, onun daşıyıcısı olan xalq yaşadır. Dilin dövlət dili statusu alması isə təkcə xalqdan, millətdən, yaradıcı ziyalılardan asılı məsələ deyil. Tarix dönə-dönə sübut edib ki, dilin inkişafı milli müstəqillik ideyalarına sadiq olan, siyasi iradəsi və qətiyyəti ilə xalqının tarixinə daxil olan liderlərin adı ilə sıx bağlıdır.

Məlum olduğu kimi, Cümhuriyyət dövründə (1918) Azərbaycan dili rəsmi dövlət dili elan edilsə də, real tarixi şərait üzündən uzunömürlü olmadı. Sovet dövründə isə yalnız 1956-cı ildə Ali Sovetin qərarı ilə respublika Konstitusiyasına Azərbaycan dili haqqında maddə əlavə edilmişdi. Ulu öndər Heydər Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində 1978-ci ildə qəbul olunan Konstitusiyada Azərbaycan dili respublikada dövlət dili kimi təsbit edildi.

davamı səh. 2-də

# Qarabağın gələcəyində onun tarixi keçmişi də yaşamalıdır

"Bizim xalqın quruculuq işində də yenilməzlik ruhu var. Bunu Ağdamın bərpası zamanı da göstərəcəyik"

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupu iyulun 29-da Ağdam rayonuna səfər edib.



İdarələrarası Mərkəzin Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi qrupunun rəhbəri, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov və İşçi qrupunda təmsil olunan qurumların rəhbər və məsul şəxsləri Ağdam şəhərinin tarixi mərkəzi hissəsi, Ağdam Dram Teatrı binasının yerləşdiyi ərazi, "İmarət" kompleksi, Ağdam Cümə məscidi, Qiyaslı məscidi, Şahbulaq qalası, rayon ərazisindəki Üzərliktəpə arxeoloji abidəsi, qəbiristanlıqlar və digər məkanlarda olublar. Heyətin baş çəkdiyi məkanlarda müvafiq qeydiyyat işləri aparılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı dövlət başçısının 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə yaradılıb.

Sərəncama əsasən, Əlaqələndirmə Qərargahının məqsədi Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsidir.

Əlaqələndirmə Qərargahına Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev başçılıq edir. Qərargahın nəzdində ayrı-ayrı sahələr üzrə İşçi qrupları fəaliyyət göstərir.

davamı səh. 2-də

## Azərbaycan Kinosu Günündə "Kinosevərlər gecəsi"

Dənizkənarı Milli Parkda açıq havada dörd premyera birdən

2 avqust Azərbaycan Kinosu Günüdür. 1898-ci il avqustun 2-də Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon çəkdiyi bir neçə kinosüjeti ("Bibiheybətdə neft fontanı yanğını", "Qafqaz rəqsi" və s.) nümayiş etdirib. Prezident Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə 2 avqust "Azərbaycan Kinosu Günü" elan olunub.




Hər il təntənəli mərasim, təltif, təqdimat və premyera ilə yadda qalan kino işçilərinin peşə bayramı ötən il məlum pandemiya səbəbindən keçirilmədi. Bu il isə əlamətdar gün münasibətilə açıq havada maraqlı proqram təşkil olunub və kinosevərlər bir deyil, iki deyil, dörd filmə baxmaq imkanı qazanacaqlar. Kino bayramının məkanı isə Dənizkənarı Milli Parkın ərazisidir.

Avqustun 2-də Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə əməkdaşlığı ilə Azərbaycan Kinosu Gününə həsr olunmuş "Kinosevərlər gecəsi" keçiriləcək. Tədbir YARAT Müasir İncəsənət Məkanının qarşısında saat 20:00-da başlayacaq və gecəyarısınadək davam edəcək.

Kino işçilərinin peşə bayramında kinosevərlərə son illərdə nüfuzlu festivallarda uğur qazanan milli filmlər təqdim olunacaq. Proqrama rejissor Əli-Səttar Quliyevin "Olimpiya" (2021, melodram, xronometraj 67 dəqiqə), rejissor Rüfət Həsənovun "Daxildəki ada" (2020, Azərbaycan/Fransa, dram, 100 dəqiqə), həmçinin Teymur Hacıyevin "Axşama doğru" (2020, dram, 12 dəqiqə) və Teymur Qəmbərovun "Quxuroba" (2020, dram, 21 dəqiqə) qısametrajlı filmləri daxildir.

Filmlər Azərbaycan dilində ingilis dilində altyazı ilə nümayiş olunacaq.

## İncəsənət əsərlərinin növbəti auksionu keçiriləcək

Pandemiya başlayandan bəri ilk dəfə

Azərbaycan Dövlət Rəsm Qalereyası və "Auction Baku" MMC-nin təşkilatçılığı ilə Azərbaycanda incəsənət əsərlərinin növbəti auksionunun keçirilməsi planlaşdırılır.

Dövlət Rəsm Qalereyasından bildirilib ki, növbəti auksion respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini yaratmaq, alıcı və satıcılar arasında əlaqə qurmaq, art-biznes sahəsində rəqabət qabiliyyətliliyini gücləndirmək, ölkənin iqtisadi inkişafında yaradıcı sənayesinin rolunu artırmaq məqsədilə həyata keçiriləcək.

Bu, COVİD-19 pandemiyasının başlamasından sonra ölkəmizdə təşkil edilən ilk incəsənət auksionu olacaq.

"Auction Baku" MMC Azərbaycan iqtisadiyyatında yaradıcı sənayenin rolu və gələcək inkişaf perspektivlərini nəzərə alaraq incəsənət əsərlərinin, əntiq əşyaların, qədimi mebellərin, musiqi alətlərinin, saatların, zərgərlik məmulatlarının, xalça və xalçaçılıq məmulatlarının, nadir şərabların ixtisaslaşdırılmış auksionunu keçirməkdə maraqlıdır.

Hərracda iştirak etmək istəyənlər şirkətin e-mail ünvanlarına (almaq üçün – auction.baku1@gmail.com, satmaq üçün – auction.baku2@gmail.com, əlaqə nömrəsi – 077 717 33 37) müraciət sorğusu göndərərək qeydiyyatdan keçə bilərlər.




Qeydiyyat bitdikdən sonra əsərlərə komissiya tərəfindən baxılacaq və hərraca qəbul edilən işlər müəyyənləşəcək.

Auksionun keçirilmə tarixi haqqında əlavə məlumat veriləcək.

## Əzizə Cəfərzadənin 100 illiyi ərəfəsində "Seçilmiş əsərləri" çapdan çıxıb

Bu il Azərbaycanın Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin (1921-2003) anadan olmasının 100 ili tamam olur.

Yubiley ərəfəsində yazıçının çoxcildlik "Seçilmiş əsərləri"nin çapına başlanılıb və artıq 12 cild nəşr olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən cildlərə yazıçının indiyədək latın qrafikası ilə nəşr olunmamış əsərləri, eləcə də az tirajla yayımlanmış kitabları daxil edilib.

Azərbaycan Milli Kitabxanası isə Ə.Cəfərzadənin geniş biblioqrafiyasını nəşrə hazırlayır.

səh. 4

## Xalq rəssamı Güllü Mustafayevanın yaradıcılığı

XX əsr Azərbaycan təsviri sənət tarixində uğurlu yaradıcılıq fəaliyyəti ilə seçilən qadın rəssamlarımız çox olub. Bu yazıda Xalq rəssamı Güllü Mustafayevadan söhbət açacağıq.

Onun yaratdığı portretlər qalereyasına nəzər yetirdikdə incəsənət xadimlərinin, müxtəlif peşə sahiblərinin yaddaqalan bədii surətlərini görmək olar. Rəssam XII əsrdə yaşamış şairə, məşhur rübailər müəllifi Məhsəti Gəncəvinin portretini son dərəcə ustalıqla işləyib.

səh. 7

"Kəndlərdə mədəniyyət günləri"nin növbəti tədbiri



səh. 3

"Kino zaman, vəsait və əmək tələb edən prosesdir"

Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənovla müsahibə

səh. 5




"Karabakh. Center" layihəsi çərçivəsində fotosərgi

səh. 5

№57 (1834)
30 iyul 2021
www.medeniyyet.az

# Qarabağın gələcəyində onun tarixi keçmişi də yaşamalıdır



*əvvəli səh. 1-də*

"Keçən ilin noyabr ayında Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. Bu gün Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun üzvləri Ağdama gəlib. Məqsəd mövcud vəziyyəti yerində görməkdir", – deyə İşçi qrupunun rəhbəri, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva jurnalistlərə açıqlamasında bildirib.

Fərəh Əliyeva qeyd edib ki, İşçi qrupunun tərkibində alimlər, mütəxəssislər və rəsmilər var. O, diqqətə çatdırıb ki, dövlət başçısı Ağdamda olub, burada aparılacaq bərpa və quruculuq işləri ilə bağlı müvafiq tapşırıqlar verilib. Həmçinin mayın 28-də Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərinin bərpasının təməlqoyma mərasimi keçirilib, şəhərin yeni baş planının təqdimatı olub.

"Ağdamın böyük gələcəyi var. Ancaq Ağdamın tarixi keçmişi də var və gələcəyində bu keçmiş də yaşamalıdır. Biz də Prezidentin göstərişinə uyğun olaraq artıq layihələr üzərində işə başlamışıq. Ağdamda bərpa və restavrasiyası mümkün olan abidələrə baxış keçirib, rəyimizi təqdim etməliyik. Gördüklərimizdən sarsılsaq da, şəxsən çox xoşbəxtəm ki, belə tarixi məqamda belə tarixi məkandayam. Ermənilər yenilməz orduları olduqlarını iddia edirdilər. Ancaq Vətən müharibəsində müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu yenilməzliyin nə olduğunu




göstərdi. Bizim xalqın quruculuq işində də artıq yenilməzlik ruhu var. Biz onu Ağdamın bərpası zamanı da göstərəcəyik", – deyə Fərəh Əliyeva vurğulayıb.

Prezident Administrasiyasının şöbə müdiri Ağdamda salamat bina qalmadığını deyib: "Hansı binaları tarixi görkəminə uyğun bərpa etmək mümkündürsə, bu istiqamətdə bütün işlər görüləcək. Hamımızın bir namus borcu var, əsgərlərimiz burada qan töküb, canları ilə bu torpaqları azad ediblər. İşçi qrupunun gəlişində də məqsəd budur. Hər bir abidə və məkana baxaraq qeydlər götürür, müzakirələr aparırıq. Bu vaxta qədər böyük iş görülüb, bundan sonra da çox böyük işlər görülməlidir. İşçi qrupunun bu səfəri də bu işə bir təkan olacaq. Ermənilər tarixi abidələri yer üzündən silsələr də, yaddaşlardan silə bilməyiblər. Yaddaşda yaşayan tarix əbədi tarixdir. Yəni bu istiqamətdə mütləq işlər, araşdırmalar aparılacaq, mütəxəssis, alim rəyi öyrəniləcək".

"Ağdamda İmarət qəbiristanlığı, Pənahəli xan və İbrahimxəlil xanın, Xurşudbanu Natəvanın türbəsi ilə bağlı geniş məlumatımız, çap olunmuş məqalələrimiz var. Ancaq işğal dövründə ermənilər tərəfindən bu abidələr bərbad vəziyyətə salınıb", – bunu isə jurnalistlərə açıqlamasında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Arif Məmmədov bildirib. O qeyd edib ki, tam əvvəlki görkəmində olmaqla, tezliklə bu abidələrin bərpası işləri aparılacaq: "İnşallah, bu ərazi yenidən insanların ziyarət yerinə çevriləcək".

# Bursada Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans başa çatıb

Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Türkiyənin Bursa şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans iyulun 29-da sona çatıb. İyulun 26-da Bursa Uludağ Universitetində başlayan konfransa Bursa Böyükşəhər Bələdiyyəsi, eləcə də Azərbaycandan Diasporla İş üzrə Dövlət Komitəsi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və digər qurumlar tərəfindən dəstək verilib.




Beynəlxalq konfransın bağlanış mərasimində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu, Bursanın Yıldırım rayon bələdiyyəsinin sədr müavini Yaşar Elmas və başqaları çıxış ediblər.

Məlumat verilib ki, altı ölkədən yetmişdən çox nümayəndənin qatıldığı konfransda iyirmidən çox məruzə və çıxış dinlənilib. Konfrans çərçivəsində panellərlə bərabər Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən Nizami Gəncəvinin əsərlərinə həsr edilən rəsm sərgisi keçirilib. Həmçinin Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən özbək dilində nəşr olunmuş Nizami Gəncəvinin külliyyatı, Türkiyədə fəaliyyət göstərən "Zengin Yayıncılık" nəşriyyatının nəşrləri, həmçinin TÜRKSOY-un nəşrləri sərgilənib.

Sonda beynəlxalq konfransın bəyannaməsi oxunub. Konfransa bədii proqramla yekun vurulub.

# "Museum.az" saytının loqosu bəlli olub




Ölkəmizdə fəaliyyət göstərən muzeylərin təbliğini həyata keçirən "museum.az" saytı üçün elan edilmiş loqo müsabiqəsinin qalibi müəyyən olunub.

Müsabiqə Mədəniyyət Nazirliyi və "Museum.az" internet bələdçisi tərəfindən 1 aprel 2021-ci il tarixində elan edilmişdi.

Tələb olunan parametrlər üzrə qiymətləndirilmədən sonra Turqut Abaslının təqdim etdiyi loqo nümunəsi müsabiqənin qalibi seçilib.

# "Fokusdan kənar"

## Ekoloji problemlər fotoqrafların baxışında

İçərişəhərdəki Bakı Fotoqrafiya Evində "Fokusdan kənar" adlı fotosərgi açılıb. Sərgi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi və "F3.7 Union" Fotoqrafların Yaradıcı Birliyinin təşkilatçılığı ilə ərsəyə gəlib.



"F3.7 Union" Fotoqrafların Yaradıcı Birliyinin sədri Şərəf Nağıyeva sərginin əhəmiyyəti haqqında danışıb. Bildirib ki, sərgi vasitəsilə diqqətdən kənarda qalan ekoloji problemləri çatdırmağa çalışıblar: "Sərginin adının "Fokusdan kənar" olması sözügedən niyyətimizdən xəbər verir. Bu işdə bizə 10 fotoqraf kömək edib. Biz ekoloji problemləri onların baxış bucağından göstəririk".

Sonra tədbir iştirakçıları nümayiş olunan fotolarla tanış olublar.

İki həftə ərzində davam edəcək sərgi çərçivəsində avqustun 1-də alman kinorejissoru Vim Vendersin "Yerin ulduzu" filmi də nümayiş olunacaq. Həmçinin daha iki tədbirin keçirilməsi planlaşdırılıb. Onlardan biri fotoqrafların iştirakı ilə baş tutacaq, digəri isə "Femiscop" platformasının "EcoFeminist Fest" layihəsinə həsr ediləcək.

# İstanbulda "Türk Şurası sosial media tədris proqramı"

İyulun 29-30-da İstanbulda "Türk Şurası sosial media tədris proqramı" mövzusunda təlim proqramı keçirilib. Tədbir Türkiyə Prezident Administrasiyası İctimaiyyətlə əlaqələr idarəsinin ev sahibliyi və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbir çərçivəsində Türk Şurasının Media və informasiya sahəsində Koordinasiya Komitəsinin birinci iclası da keçirilib.

Türkiyə Prezidenti Administrasiyası İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altunun iştirakçılara ünvanlanan videomüraciətində Türk Şurasının ölkələrimiz arasında mövcud möhkəm əlaqələrin daha da gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. F.Altun ölkələrimiz arasında, digər sahələrdə olduğu kimi, ünsiyyət sahəsində də həmrəyliyin və əməkdaşlığın dərinləşdirildiyini, dezinformasiyaya qarşı mübarizədə uzun bir yol keçən Türkiyənin bu sahədə təcrübəsinin üzv ölkələr üçün də faydalı olacağına ümid etdiyini söyləyib.




Treninqə Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, eləcə də Türk Şurasında müşahidəçi statusu olan Macarıstanın dövlət qurumlarının təmsilçiləri qatılıblar. "Sosial media istifadəçiləri və dezinformasiyaya qarşı mübarizə", "Türkiyədə internet hüququ və tətbiqlər", "Texnoloji transformasiya və kibertəhlükəsizlik təhdidləri" və digər mövzularda müzakirələr aparılıb.

"Qarabağ müharibəsində sosial mediadan istifadə imkanları və dezinformasiyaya qarşı mübarizə" mövzusunda təlimdə 2020-ci ilin Vətən müharibəsində Azərbaycanın sosial informasiya sahəsində üzləşdiyi ikili standartlar, ölkəmizin haqlı mübarizəsinin dünyanın müxtəlif sosial resursları tərəfindən yanlış təqdim edilməsi, bu hallara qarşı mübarizə metodları, Türkiyənin bu kibermübarizədə Azərbaycana verdiyi dəstək və Türkiyə təcrübəsi müzakirə olunub.

Proqramın keçirilməsində əsas məqsəd üzv ölkələr arasında media sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, sosial mediada dezinformasiyalara qarşı mübarizə, sosial şəbəkələrin ortaq istifadəsi, bu sahələrdə təcrübələrin mübadiləsinin aparılmasıdır.

# Azərbaycan-İsrail əməkdaşlığında tarixi hadisə

## Təl-Əviv şəhərində ölkəmizin ticarət və turizm nümayəndəlikləri açılıb

İyulun 29-da İsrailin Təl-Əviv şəhərində Azərbaycan Respublikasının ticarət və turizm nümayəndəlikləri açılıb.

Tədbirdə Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədrləri – Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, İsrailin turizm naziri Yoel Razvozov iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov ticarət və turizm nümayəndəliklərinin ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. M.Cabbarov 44 günlük Vətən müharibəsi ərzində Azərbaycana göstərdiyi dəstəyə görə İsrail tərəfinə təşəkkürünü bildirib, İsrail şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasına göstərdikləri marağı yüksək qiymətləndirib.

İqtisadiyyat naziri enerji, səhiyyə, rəqəmsallaşma, investisiyalar, innovasiya, İKT, kənd təsərrüfatı, su resurslarının idarə edilməsi, turizm kimi sahələrdə ikitərəfli əməkdaşlığın



genişləndirilməsi üçün böyük potensialı vurğulayıb və İsrail iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən faydalanmağa dəvət edib.

Azərbaycanın Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışında ölkəmizdə tarixi yəhudi irsinin qorunması və bu irsin turizm potensialından söz açıb. Bildirib ki, agentlik tərəfindən "Azərbaycanda yəhudi irsi" turizm marşrutu hazırlanıb, həmçinin İsrailin Azərbaycandakı Səfirliyi ilə birlikdə dağ yəhudilərinin sıx yaşadığı Quba rayonundakı Qırmızı qəsəbədə turizm marşrutlarının inkişafı istiqamətində addımlar atılır.

İsrailin turizm naziri Yoel Razvozov İsrail-Azərbaycan münasibətlərinin strateji xarakter daşıdığını, qarşılıqlı etimad və hörmətə əsaslandığını qeyd edib. Bildirib ki, İsraildə Azərbaycanın ticarət və turizm nümayəndəliklərinin açılması ölkələrimizin otuz ilə yaxın davam edən əməkdaşlığında tarixi hadisədir. Bu mühüm qərarı qəbul etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirən Yoel Razvozov iqtisadi əməkdaşlığın yeni hədəflərinin qarşıya qoyulduğunu və nümayəndəliklərin bu məqsədə xidmət etdiyini vurğulayıb. Qeyd edib ki, nümayəndəliklər müxtəlif sahələrdə birgə biznes qurmaq istəyən İsrail iş adamları üçün yeni ünvan, əlverişli platforma olacaq.

Tədbir zamanı Azərbaycanın iqtisadi və turizm potensialı haqqında təqdimat da keçirilib.

# 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

## Latın qrafikalı əlifbaya keçidin başa çatmasından 20 il ötür

*əvvəli səh. 1-də*

Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra, 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qərar qəbul edildi, amma icrası illərlə uzandı. Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanına əsasən, bu proses başa çatdı. 2001-ci ilin 1 avqustunda ölkə ərazisində bütün idarə-müəssisələr, təşkilatlar, Azərbaycan dilində bütün nəşrlər latın qrafikalı əlifbaya keçdi.

2001-ci ilin 9 avqustunda Prezident Heydər Əliyev 1 avqust tarixinin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman imzaladı.

Fərmanda Azərbaycan xalqının tarix boyu müxtəlif əlifbalardan istifadə etdiyi diqqətə çatdırılaraq ilk dəfə XX əsrin 20-ci illərində gerçəkləşən latın qrafikalı əlifbaya keçidin əhəmiyyəti vurğulanırdı. Qeyd olunurdu ki, Azərbaycan ərazisində İslamın yayıldığı dövrlərdən başlayaraq xalqımız min ildən artıq bir zaman ərzində ərəb əlifbasından istifadə etmiş, ölkəmizin böyük ədibləri, mütəfəkkirləri bu əlifbada yazdıqları əsərlərlə bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundzadə başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uyğun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdı. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı mövcud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını reallaşdırdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında Əlifba Komitəsinin yaradılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Bundan sonra yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirirdi.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi.

Beləliklə, on ilə yaxın davam edən latın qrafikalı Azərbaycan əlifbasına keçid 2001-ci ilin 1 avqustunda başa çatdı. Bu, Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə idi...

Artıq iyirmi ildir bu əlamətdar günü qeyd edirik. Neçə belə illərə... Ana dilimizin və əlifbamızın bayramı mübarək!...

# Yüz eşitməkdənsə, bir görmək...

## "Buraya gəlməzdən əvvəl Azərbaycanın mədəniyyət beşiyi Şuşa haqqında eşitmişdik"




Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysərin rəhbərlik etdikləri nümayəndə heyətləri iyulun 29-da Şuşa şəhərinə səfər edib.

Nümayəndə heyətləri Şuşa şəhərindəki bir sıra tarixi və dini-memarlıq abidələrini və digər məkanları ziyarət ediblər.

Qonaqlara işğal dövründə erməni vandalizminin nəticələri, həmçinin Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verilib. Daha sonra Cıdır düzünə gələn qonaqlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Türkiyə-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bu sözləri, həmçinin Pakistanla münasibətlər barədə də demək mümkündür. Biz Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini Pakistanla üçtərəfli münasibətlərə çevirməyə qərar verdik.

Bu fikirləri Şuşada AZƏRTAC-a müsahibəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop söyləyib.

O bildirib ki, iyulun 27-də Azərbaycan Milli Məclisində imzalanan üçtərəfli Bakı Bəyannaməsi üç ölkə arasında strateji əməkdaşlığın gücləndirilməsində, təhlükəsizliyimizin təmin olunmasında mühüm rol oynayacaq.

TBMM-in sədri diqqətə çatdırıb ki, birgə əməkdaşlıqla bağlı təşəbbüs Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova tərəfindən bu ilin aprel ayında Pakistanın İslamabad şəhərində keçirilən iqtisadi konfransda irəli sürülüb və çox qısa zamanda həyata keçirilib.

Mustafa Şentop Türkiyənin hər zaman qardaş və dost ölkələrin yanında olduğunu deyib və bunun ən gözəl təzahürü kimi ölkəsinin Azərbaycanın 44 günlük Vətən müharibəsində verdiyi dəstəkdən danışıb.

TBMM-in sədri Şuşa barədə ilk təəssüratını da bölüşüb. "Buraya gəlməzdən əvvəl Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri haqqında eşitmişdik. Bu gözəl və əsrarəngiz şəhəri öz gözlərimlə görmək məni həyəcanlandırdı. Amma təəssüflə demək istəyirəm ki, Şuşada gördüyümüz dağıntılar bizi məyus etdi. Özlərini bu şəhərin "sahibi" adlandıranlar buranın gözəlliyinə xələl gətiriblər. Bunu ancaq işğalçı zehniyyətli və işğalçı siyasət yürüdən ölkə edə bilər", – deyə o bildirib.

İşğaldan azad edilmiş bütün ərazilərdə olduğu kimi, Şuşada da bərpa-quruculuq işlərinin sürətlə getdiyini bildirən Mustafa Şentop deyib: "İnanıram ki, yaxın bir-iki ayda Şuşa şəhərində həyat öz axarına düşəcək".

Qeyd edək ki, nümayəndə heyətləri Şuşadan qayıdarkən yolüstü Füzuli rayonunda da olublar. Nümayəndə heyətlərinin üzvlərinə Füzuli rayonunda erməni vandallarının törətdiyi dağıntılar, həmçinin dövlətimiz tərəfindən aparılan tikinti-quruculuq işləri barədə məlumat verilib.

Qonaqlar Füzuli şəhərində erməni vandalları tərəfindən dağıdılan binaların qalıqlarına baxıb, yeni inşa olunan Füzuli Beynəlxalq Hava Limanı, həmçinin "Füzuli" yarımstansiyası ilə tanış olublar.





# Oklahoma qubernatoru İçərişəhəri çox bəyənib

Ölkəmizdə səfərdə olan ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyəti İçərişəhəri ziyarət edib.



"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, qonaqlar Şirvanşahlar sarayında və Qız qalasında olublar. Onlara ərazidəki abidələrin tarixi və memarlıq xüsusiyyətləri barədə geniş məlumat verilib.

Ziyarətçilər daha sonra ötən il açılışı olan Bakı Xan sarayı kompleksinin parkı və Yeraltı hamamla tanış olublar. Qonaqlar ərazidə aparılan konservasiya və bərpa işləri haqqında məlumatlandırılıb. İçərişəhər qonaqlarda zəngin təəssürat yaradıb.

# Mən neft tapdım...

## Fərman Salmanova həsr olunan sənədli film ilin sonunadək təhvil veriləcək

Mədəniyyət Nazirliyinin "Salnaməfilm" studiyası və "Caspian Media Group"un istehsalı olan "Mən neft tapdım – Salmanov" bioqrafik sənədli filminin çəkilişləri davam edir.



Rusiyanın "Surqutneftqaz" şirkətinin iştirakı ilə reallaşan film dünyanın məşhur neftçi-geoloqu, Azərbaycan xalqının ləyaqətli oğlu, Sosialist Əməyi Qəhrəmanı, Tümen neftini ilk kəşf edənlərdən biri Fərman Salmanovun 90 illik yubileyinə həsr olunur.

Filmin müəllifi Hüseyn Cavadzadə, operatoru Rauf Qurbanəliyev, ssenari müəllifi isə Ramiz Fətəliyevdir.

Çəkilişlər Bakıda, Fərman Salmanovun doğulduğu Şəmkirdə, Rusiyanın Moskva, Surqut, Neftyuqansk şəhərlərində aparılır. Filmin Bakı, Şəmkir çəkilişləri artıq başa çatıb, hazırda pandemiya şəraiti ilə əlaqədar Rusiya çəkilişlərinə görə filmin təhvilvermə müddəti uzadılıb. Filmdə Milli Arxiv İdarəsinin kino-foto sənədləri, həmçinin Rusiya arxivlərinin kinomateriallarından istifadə olunması da planlaşdırılır.

Fərman Salmanovun filmdəki obrazını geoloqun nəvəsi Fərman Salmanov canlandıracaq.

Layihənin ilin sonuna qədər ekranlaşdırılması və yerli kanallarla yanaşı, Rusiya telekanallarında da nümayiş etdirilməsi gözlənilir. Layihənin təşkilati və informasiya dəstəyini "Rossotrudniçestvo" (Rusiyanın xaricdə yaşayan soydaşlar və beynəlxalq humanitar əməkdaşlıq işləri üzrə Federal Agentliyi) və Biznes Dialoq Media şirkəti verir.

**Bölgələrdən xəbərlər**

# Vətənin qəhrəmanları unudulmur

Gəncə Regional Mədəniyyət İdarəsi Goranboy rayon Mərkəzi Kitabxanası və şəhər 1 saylı Sənətkarlıq klubunun birgə təşkilatçılığı ilə oxu zalında Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Ulduzlar sönmür, şəhidlər ölmür" başlıqlı tədbir keçirilib. Çıxışlarda Vətənin bütövlüyü üçün canını, qanını əsirgəməyən igid oğulların yeni nəsillər üçün örnək olduğu vurğulanıb.



Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidləri Nail Abakarov və Zöhrab Mehdiyevin məzarlarını və ailələrini ziyarət edib.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon MKS-nin 49 saylı Əhmədavar kənd kitabxana filialı Vətən müharibəsi şəhidi Xalid Hassanın xatirəsinə həsr olunmuş "Tarix yazanlar" adlı videoçarx ərsəyə gətirib.

# Bəşəri ideyalar carçısı



Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzində "Poeziya dünyasının dahisi Nizami Gəncəvi yaradıcılığı" mövzusunda tədbir keçirilib. Tədbirdə mərkəzin gənc könüllüləri tərəfindən Nizami Gəncəvinin qəzəlləri səsləndirilib.

Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Birinci Biləcik kənd Folklor evi və MKS-nin 24 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə "Dahi Nizaminin söz dünyası" adlı tədbir keçirilib. Tədbirdə Folklor evinin direktoru Zərnişan Həsənova şairin həyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edib. Biləcik kənd tam orta məktəbinin şagirdləri Nizaminin qəzəllərindən nümunələr səsləndiriblər. Tədbirin sonunda dahi şairin əsərlərindən ibarət kitab sərgisinə baxış keçirilib. Balakən rayon Qullar kənd Sənətkarlıq evinin təşkilatçılığı ilə "Qüdrətli söz ustadı" adlı onlayn tədbir keçirilib. Tədbirdə "Xosrov və Şirin" və "Sirlər xəzinəsi" əsərlərindən parçalar, dahi şairin hikmətli kəlamlarından nümunələr söylənilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Heydər Əliyev Mərkəzi və Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Söz, kitab və mütaliə" adlı tədbir keçirilib. Çıxış edənlər əsrlər boyu Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus yeri olan Nizami Gəncəvi irsinin bu gün də öz aktuallığını saxladığını vurğulayıblar. Qəbələ rayon Mədəniyyət Mərkəzinin Bum qəsəbə Mədəniyyət evi isə "Nizami Gəncəvi yaradıcılığından nümunələr" adlı videoçarx hazırlayıb.

# Müxtəlif səpkili tədbirlər

Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov və idarənin əməkdaşları Yardımlı rayonunda bir neçə kənd mədəniyyət müəssisəsinə baxış keçirib. İdarə rəisi müəssisələrin cari fəaliyyətinin müvafiq iş planları üzrə təşkili və intizam qaydalarına riayət olunması ilə bağlı tövsiyələr verib. Görüşlərdə həmçinin işçi kollektivlərin problemlərinin həlli istiqamətində müzakirələr aparılıb.



Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı rayonunun Nəsimikənd kəndində Folklor evinin və "Adıgün" Mədəniyyət evinin birgə təşkilatçılığı ilə "Mədəni kənd - mədəni mühit" layihəsi çərçivəsində tədbir keçirilib. Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə və Axıska Türkləri Vətən İctimai Birliyi İdarə heyətinin sədri İsmayıl Rəhimovun da iştirak etdiyi tədbirdə Axıska türklərinin adət-ənənələrini, mədəniyyətini, folklorunu, mətbəxini özündə əks etdirən bir-birindən maraqlı kompozisiyalar təqdim olunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Mədəniyyət Mərkəzinin Hacıalılı kənd Mədəniyyət evi görkəmli fırça ustası, Xalq rəssamı, Dövlət mükafatı laureatı Maral Rəhmanzadənin (1916-2008) 105 illiyinə həsr olunmuş videoçarx hazırlayıb.

Şəmkir Regional Mədəniyyət İdarəsinin dəstəyi, idarənin Göygöl rayon nümayəndəliyinin təşkilatçılığı ilə Göygöl rayon Heydər Əliyev parkında yerləşən "Yaşıl teatr"da "Narkomaniya bəşəriyyətin bəlasıdır, narkomaniyaya yox deyək!" adlı tədbir keçirilib. Tədbirdə "Narkomaniya ağ ölümdür" başlığı ilə maarifləndirici videoçarx təqdim olunub.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə "Narkomaniya əsrin bəlasıdır" başlıqlı onlayn tədbir keçirilib. Tədbirdə mərkəzi və filial kitabxanalarının əməkdaşları, fəal oxucular iştirak ediblər.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin şagirdi Hədiyyə Mirzəyeva İsraildə keçirilən "Holy Land" beynəlxalq onlayn müsabiqəsində iştirak edərək "İnstrumental ifaçılıq" nominasiyasında 3-cü yerə layiq görülüb.



Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır" mövzusunda maarifləndirici tədbir keçirilib. Kitabxanaların və Heydər Əliyev Mərkəzi əməkdaşlarının iştirak etdiyi tədbirdə çıxış edənlər yeniyetmə və gəncləri narkomaniyaya yox deməyə, sağlam həyat sürməyə, mənəvi kamilliyə çağırıblar.



Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə həyata keçirilən "Kəndlərdə mədəniyyət günləri" layihəsinin növbəti ünvanı Şabran rayonunun Pirəbədil kəndi olub. Xalçaçılıq ənənələri ilə tanınan Pirəbədil kəndində dahi şair Nizami Gəncəvinin həyat və yaradıcılığını əks etdirən kitab sərgisi, rəsm və əl işləri, yerli mətbəx nümunələri, adət-ənənələri əks etdirən stendlər nümayiş etdirilib. Tədbirdə incəsənət adamları, bədii kollektivlərlə yanaşı, 44 günlük Vətən müharibəsinin iştirakçıları, şəhid ailələrinin üzvləri də iştirak ediblər. "Xınayaxdı" folklor kollektivi və Şabran Xalq teatrının çıxışları maraqla qarşılanıb. Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov layihə çərçivəsində tədbirlərin bölgənin digər rayonlarında da təşkil ediləcəyini diqqətə çatdırıb.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Yaxşı kitab ömürlük dostdur" adlı onlayn söhbət keçirib.

Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "İstedad sorağında" adlı şeir müsabiqəsinə yekun vurulub. 9-25 yaş arası iştirakçıları əhatə edən müsabiqədə Səadət Çərçiyeva I, Şəbnəm Osmanova II, Rəqsanə Rəhmanova III yerlərə layiq görülüblər. Qaxın Əmbərçay kənd kitabxanası tərəfindən yaşlı oxuculara səyyar kitabxana xidməti təşkil olunub.

**Hazırladı: NURƏDDİN**

# İmtahan həyəcanı başa çatır

Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanları başa çatıb.

İyulun 27-28-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları (blok fənləri üzrə) keçirilib. II və III ixtisas qrupları üzrə qəbul imtahanları isə 14-15 iyul tarixlərində təşkil edilmişdi.

İyulun 28-də, həmçinin Dövlət İmtahan Mərkəzi tərəfindən II və III ixtisas qrupları üzrə qəbul imtahanlarının nəticələri elan edilib.

İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 37793 abituriyentdən (II qrup üzrə 16758 nəfər, III qrup üzrə 21035 nəfər) 1767 nəfəri (II qrup üzrə 1021 nəfər, III qrup üzrə 746 nəfər) imtahanda iştirak etməyib. Abituriyentlərdən 18 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

Qəbul imtahanında II ixtisas qrupu üzrə 2 nəfər ən yüksək – 400 bal toplayıb. Onlardan biri – Salyan rayonu, 4 saylı şəhər orta məktəbin məzunu hər iki mərhələnin (buraxılış – qəbul imtahanın 1-ci mərhələsi və blok fənləri üzrə imtahan) cəminə görə 691.2 bal toplayıb. Bu, 2021-ci ildə II ixtisas qrupu üzrə ən yüksək baldır.

III ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə ən yüksək nəticəni isə Sumqayıt şəhəri, 21 saylı orta məktəbin məzunu əldə edib: 680 bal (II mərhələdə 385.2 bal, I mərhələ isə 294.8 bal).

Xatırladaq ki, imtahanın I mərhələsində maksimal olaraq 300, II mərhələsində isə 400 bal toplamaq mümkündür. Müsabiqə hər iki mərhələdə toplanılan balların cəminə görə aparılır.

I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarının nəticələrinin iki həftə ərzində – avqustun 10-dək elan edilməsi gözlənilir. Bundan sonra yekun mərhələ – dörd qrup üzrə ali məktəblərə ixtisas seçimi və toplanmış ballara müvafiq yerləşdirmə keçiriləcək.

Ali təhsil müəssisələrinin V ixtisas qrupu üzrə, habelə 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatı isə iyulun 29-da başa çatıb.

№57 (1834)
30 iyul 2021
www.medeniyyet.az

## Milli Məclisin Mədəniyyət komitəsində məşhur fotojurnalist soydaşımızla görüş

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Azərbaycan əsilli məşhur fotojurnalist, ABŞ-ın Milli Coğrafiya Cəmiyyətinin (National Geographic Society) fotoqrafı, Fransa vətəndaşı Rza Diqqəti (Reza Deqati) ilə görüşüb, onu doğum günü münasibətilə təbrik edib.



R.Diqqətinin istər 90-cı illərdə, istərsə 2020-ci ildə 44 günlük Vətən müharibəsində erməni vandalizminin fotofaktlarla ifşa edilməsi, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə yayılması sahəsində xidmətlərini minnətdarlıqla vurğulayan Q.Paşayeva deyib: "Siz dünyanın harasında yaşayıb, çalışsanız da doğma Azərbaycana bağlılığınızı bir an belə unutmamış, necə deyərlər, Azərbaycanla nəfəs almısınız. 1991-ci ildən etibarən Milli Coğrafiya Cəmiyyəti ilə əməkdaşlığa başlamısınız və bir çox layihələri həyata keçirmisiniz. Çəkdiyiniz şəkillər 25 jurnalın üz qabığı olub... Bütün bu və bənzəri çalışmalarınız içində, əlbəttə, doğma Azərbaycanda baş verən hadisələrə - özəlliklə, Qarabağın işğalına biganə qalmamış, çoxsaylı yaddaqalan fotolarınızla Ermənistanın vandalizm aktlarını dünyaya nümayiş etdirmisiniz".

Qənirə Paşayeva sənətkara Qarabağ motivli xatirə hədiyyəsi və Milli Məclisin Mədəniyyət komitəsinin təşəkkür məktubunu təqdim edib.

Görüşdə sənətkarın bacısı, "Banu" moda evinin modelyer-dizayneri Pəriçöhrə Diqqəti və "Nəfəs" İctimai Birliyinin sədri Firəngiz Balakişiyeva iştirak ediblər.

R.Diqqəti səmimi görüş üçün komitə sədrinə təşəkkür edib.

## Yazıçı Seyran Səxavətə "Nizami Gəncəvi" mükafatı verilib



Görkəmli yazıçı Seyran Səxavət Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Nizami Gəncəvi" mükafatına layiq görülüb.

Mükafatı AYB-nin sədri, Xalq yazıçısı Anar təqdim edib. AYB-nin sədri Seyran Səxavəti bu münasibətlə təbrik edərək ona yeni yaradıcılıq uğurları arzulayıb.

Seyran Səxavət belə bir dəyərli mükafata layiq görüldüyü üçün Yazıçılar Birliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

## Əzizə Cəfərzadənin 100 illiyi ərəfəsində "Seçilmiş əsərləri" çapdan çıxıb

Bu il Azərbaycanın Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin (1921-2003) anadan olmasının 100 ili tamam olur. Yubiley ərəfəsində yazıçının çoxcildlik "Seçilmiş əsərləri"nin çapına başlanılıb və artıq 12 cild nəşr olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən cildlərə yazıçının indiyədək latın qrafikası ilə nəşr olunmamış əsərləri, eləcə də az tirajla yayımlanmış kitabları da daxil edilib.



Əzizə Cəfərzadənin oğlu Turan İbrahimov bildirib ki, birinci cild yazıçının "Natəvan haqqında hekayələr"i ilə başlayır. Müəllifin "Seçilmiş əsərləri"ndə, həmçinin "Qobustan çökəklərində" romanı, "Qaratel", "Manar sahillərində", "Qoşqar", "Bir zərrə iz..." və başqa povestləri, qırx hekayəsi ilk dəfə nəşr edilib. Hekayə və povestlərin bir qismi Əzizə Cəfərzadənin 1948-ci ildə çap edilmiş və Moskvanın qərarı ilə mətbəədən yığışdırılaraq yandırılmış "Hekayələr" kitabına daxil olan, həmçinin 1948-1963-cü illər ərzində nəşr olunmağa icazə verilmədiyi dövrdə yazdığı əsərlərdir.

Əzizə Cəfərzadənin "Seçilmiş əsərləri"nə filologiya elmləri doktoru, professor Vaqif Sultanlı "Ədəbiyyatın vətənsevərlik missiyası" adlı geniş ön söz yazıb. O, həmçinin bir neçə cildin redaktorudur. Hekayə və povestlərin daxil edildiyi cildlərin tərtibatçısı, redaktoru və ön sözlərinin müəllifi Türkiyənin Mehmet Akif Ersoy Universitetinin müəllimi, dosent Pərvanə Bayramdır.

Kitablar respublikanın müxtəlif şəhərlərində yerləşən mərkəzi kitabxanalara hədiyyə ediləcək. Artıq xeyli kitabxana "Seçilmiş əsərləri" və son dövrdə nəşr olunmuş kitabları elektron versiyaları ilə birlikdə öz fonduna daxil edib. Yaxın günlərdə digər kitabxanalara da əsərlər veriləcək və yazıçının www.azizajafarzade.com saytında kitabların elektron versiyası yerləşdiriləcək. Bu, Əzizə Cəfərzadənin ədəbi irsinin Azərbaycanda və respublikadan kənarda yaşayan geniş oxucu kütləsinə çatdırılmasına kömək edəcək.

Yazıçının digər əsərlərinin nəşri üzərində iş davam etdirilir və yeni hazırlanacaq iki cilddə oxuculara onun səyahətnamə janrında qələmə aldığı əsərləri təqdim ediləcək. Sonrakı cildlərdə yazıçının Azərbaycan klassik ədəbiyyatı, aşıq yaradıcılığı, həmçinin qadın aşıq və şairlərə həsr edilmiş elmi tədqiqat işləri, publisistik məqalələri nəşr olunacaq.

Ötən il Əzizə Cəfərzadənin "Folklor araşdırmaları" və "Anamın nağılları" kitabları işıq üzü görüb. Bu il "Qanun" nəşriyyatı yazıçının "Bakı-1501" romanını yenidən çap edib. "Hədəf nəşrləri" Əzizə Cəfərzadənin "Tanıdıqlarım, sevdiklərim xatirələrimdə", "Bir səsin faciəsi" və bir neçə digər kitabını rusca nəşr etməyi planlaşdırır. "Altun kitab" nəşriyyatı "Bakı-1501" və "Gülüstan"dan öncə" romanlarının uşaqlar üçün işlənmiş variantını bu il nəşr etməyi nəzərdə tutur. Azərbaycan Milli Kitabxanası isə Əzizə Cəfərzadənin geniş biblioqrafiyasını nəşrə hazırlayır.

# Milli-mənəvi dəyərlərə sadiqlik və gələcək əməkdaşlıq üçün çağırış

### Gəncədə Şuşa Bəyannaməsinə həsr olunmuş konfrans keçirilib

Xəbər verildiyi kimi, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) nümayəndə heyəti ölkəmizə səfərə gəlib. İyulun 28-də Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında əməkdaşlıq protokoluna uyğun olaraq "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzusunda konfrans keçirilib.

Konfrans Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

YAP sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir uğurunu öz uğuru kimi qəbul edib. Biz bunu bu gün əyani şəkildə bir daha görürük. Xüsusilə, 44 günlük Vətən müharibəsində Azərbaycanı istəməyən müxtəlif qurumların, təşkilatların təzyiqlərinə baxmayaraq, qardaş Türkiyə bizim yanımızda oldu".

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, AK Parti sədrinin xarici əlaqələr üzrə müavini, Bursadan deputat Efkan Ala, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Azərbaycan Dövlət Aqrar Universiteti-





Tədbirə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatları, dövlət qurumlarının əməkdaşları, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, mədəniyyət, elm xadimləri qatılıblar.

Konfransdan əvvəl qonaqlar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, Gəncə Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Mərkəzin direktor əvəzi İlknur İsgəndərova mərkəzin fəaliyyəti haqqında qonaqlara məlumat verib. AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

Budaqov çıxış edərək konfransın əhəmiyyətini diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsinin Türkiyə-Azərbaycan münasibətlərinin zirvəsi olduğunu bildirən T.Budaqov iki ölkəni birləşdirən tarixi köklərin, mədəniyyətin, dinin və milli-mənəvi dəyərlərin olması ilə yanaşı, dövlət başçılarının qarşılıqlı münasibətlərinin də bu əlaqələrin yüksək səviyyəyə çatmasında böyük rol oynadığını vurğulayıb: "Türkiyə–Azərbaycan dostluğu bizim milli köklərimizə əsaslanır və çoxəsrlik tarixə malikdir. Türkiyə Azərbaycanın hər bir problemini öz problemi, hər bir

AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş konfransın Vətən müharibəsindəki Zəfərdən sonra keçirilməsinin xüsusi əhəmiyyəti olduğunu vurğulayıb. Bildirib ki, Qarabağ zəfəri işğal altındakı ərazilərin azad olunması ilə birgə bütün dünyaya haqlı tərəfin hər zaman qələbə çalacağını göstərdi. Türkiyə Respublikası başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, müharibənin ilk günündən Azərbaycanın yanında oldu. Bu gün məqsəd bu Qələbədən sonrakı nailiyyətləri daha yüksək səviyyəyə qaldırmaqdır.

nin rektoru, professor İbrahim Cəfərov, SETA Araşdırmalar Mərkəzinin xarici əlaqələr üzrə mütəxəssisi, professor Ferhat Pirinççi konfransda çıxış edərək Şuşa Bəyannaməsinin əhəmiyyətindən və gələcəkdə qarşılıqlı əlaqələrin inkişafındakı rolundan danışıblar.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub, birgə şəkil çəkdirilib.

Konfransdan sonra Numan Kurtulmuşun başçılıq etdiyi Türkiyə nümayəndə heyəti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin Məqbərə Kompleksini ziyarət edib.

# "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq"

### Diaspor nümayəndələri Cıdır düzündə nəhəng Azərbaycan bayrağı açıblar

Azərbaycanın müxtəlif ölkələrdən gələn diaspor nümayəndələri iyulun 27-də Şuşa şəhərinə səfər ediblər. Diasporla İş üzrə Dövlət Komitəsinin təşkil etdiyi səfər "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında gerçəkləşib.

Dövlət Komitəsindən bildiriblər ki, səfər çərçivəsində diaspor nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtı Şuşada erməni vandalizminə məruz qalmış və bu il yenidən bu qədim şəhərə qaytarılan "Güllələnmiş heykəllər"in (Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın büstləri) olduğu meydanı, Xurşudbanu Natəvanın evini, "Xan qızı bulağı"nı ziyarət ediblər. Diaspor nümayəndələrinə Şuşanın çoxəsrlik tarixi, zəngin mədəniyyət abidələri barədə ətraflı məlumat verilib.

Səfərdə 20-dən çox ölkədən tarixi vətənə gəlmiş diaspor nümayəndələri iştirak edib. Soydaşlarımız birlik və həmrəylik rəmzi olaraq Şuşanın Cıdır düzündə nəhəng Azərbaycan bayrağı açıblar.



## "Nizami və vətənpərvərlik"

Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun Nizami Gəncəvi Məqbərə filialının birgə təşkilatçılığı ilə "Nizami və vətənpərvərlik" mövzusunda tədbir keçirilib.



Əvvəlcə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsinə ehtiram olaraq F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası muğam üçlüyünün ifasında "Xudayar təsnifi" təqdim olunub. Təsnifi Gəncə şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin səs-muğam sinfinin müəllimi, filarmoniyanın solisti Xəyal Əliyev, tar ifaçısı Coşqun Süleymanov, kamança ifaçısı Ayxan Məmişov səsləndiriblər.

Daha sonra tədbirdə çıxış edən Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov Prezident İlham Əliyev tərəfindən dahi şair və mütəfəkkirin 880 illiyi münasibətilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunduğunu diqqətə çatdırıb. Bildirib ki, regional idarənin təşəbbüsü və təşkilatçılığı ilə əlamətdar il çərçivəsində ənənəvi və onlayn tədbirlər keçirilib. Regional idarənin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində ilin sonunadək "Nizami ili" ilə bağlı müxtəlif tədbirlər təşkil olunacaq.

Tədbir Gəncə filarmoniyası muğam üçlüyünün Nizamiyə həsr etdiyi musiqi nömrəsi ilə başa çatıb.

## Azərbaycan-Türkiyə əməkdaşlığına regionlar da cəlb olunub

Bu ilin mart ayında mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfərindən sonra iki qardaş ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın üfüqləri genişlənib. Bu prosesə regionlar da cəlb olunub.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) Azərbaycan nümayəndəliyinin rəhbəri Teoman Tiryaki ilə görüşüb. Görüşdə mədəniyyət sahəsində həyata keçiriləcək birgə layihələr müzakirə olunub, işgüzar əlaqələrin davam etdirilməsi ilə bağlı gələcək fəaliyyət proqramı nəzərdən keçirilib.

İdarə rəisinin Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıçla da görüşü olub. Söhbət zamanı Azərbaycan və türk mədəniyyətlərinin ortaq təşviqi, gələcəkdə qarşılıqlı işgüzar əlaqələrin inkişaf etdirilməsinə toxunulub. Eyni zamanda digər türkdilli ölkələrlə mədəni əlaqələrin genişləndirilməsi, yaradıcı insanların irsinin tanıdılması və öyrədilməsi istiqamətində layihələrin gerçəkləşdirilməsinə dəstək məsələlərindən söz açılıb.

# "YAŞAT" düşərgəsinin ikinci həftəsi davam edir

"YAŞAT" Fondunun və "ASAN Könüllüləri"nin birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin ikinci həftəsi davam edir.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, düşərgənin ikinci günündə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının kollektivi tərəfindən "Şəngülüm, Məngülüm" tamaşası nümayiş etdirilib. Həmçinin Xanbulan gölünə və Hirkan Milli Parkına ekskursiya təşkil olunub.



Şəhid Ariz Məhərrəmovun övladı Mədinə Məhərrəmovanın doğum günü də "YAŞAT" düşərgəsində qeyd edilib. Günə musiqili əyləncə proqramı ilə yekun vurulub. Düşərgənin üçüncü günündə səhər idmanı, ardınca isə psixoloqlarla görüş və uşaq parkında əyləncə saatı təşkil olunub.

8-11 yaş kateqoriyasında olan şəhid övladlarının qatıldığı düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, sənətçilər, tanınmış şəxslərlə görüşlər, konsert proqramları, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər təşkil olunur. Tərəfdaş qurum və şirkətlər tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilir.

İyulun 12-dən başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgə həftəsi nəzərdə tutulub. Düşərgənin baş sponsorları "Lankaran springs" hoteli və "PMD Hospitality"dir.



# “Karabakh. Center” layihəsi çərçivəsində fotosərgi açılıb

Xəbər verdiyimiz kimi, Qarabağ Dirçəliş Fondu otuz ilə yaxın davam edən erməni işğalı nəticəsində xalqımızın maddi mədəni irsinə, təbii sərvətlərinə dəyən zərərə həsr olunmuş “Karabakh. Center” layihəsini ərsəyə gətirib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan layihə Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədi daşıyır.

İyulun 27-də “Karabakh. Center” layihəsində yer alan fotoşəkillərdən ibarət sərgi açılıb. Mərasimdə Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev qurumun yaradılması, məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirib ki, “Karabakh. Center” internet resursunda 10 mindən çox foto və videogörüntü toplanıb. Fotoşəkillər və videolar saytın “Urbisid” bölməsində yerləşdirilib. Bölmədə həmçinin Qarabağdakı memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş fotoşəkilləri ilə tanış olmaq mümkündür.

Portalda tarixçilər, tədqiqatçılar və jurnalistlərin münaqişə və Ermənistanın işğalçılıq fəaliyyəti haqqında Azərbaycan və rus dillərində məqalələri də yerləşdirilib. “Məqsədimiz bu materialları dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır. Buna görə də onun sosial şəbəkələrdə geniş təbliğinə başlamışıq. Bu layihəni təqdim etməklə həmvətənlərimizin səylərini Qarabağın bərpasına səfərbər edəcəyik”, – deyə Rəhman Hacıyev vurğulayıb.






O, internet resursunun yaradılmasının təşəbbüskarı olan Mehriban xanım Əliyevaya göstərdiyi etimada, fəal dəstəyə görə Fondun Müşahidə Şurasının üzvlərinə minnətdarlığını bildirib. Həmçinin işğaldan azad edilmiş ərazilərdə çəkilmiş foto və videoların böyük bazasına çıxışı təmin edən Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) və “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-yə (AzTV) təşəkkür edib.

Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının üzvü Fatma Yıldırım, Qarabağ Dirçəliş Fondu Fandreyzinq və kommunikasiya şöbəsinin rəhbəri Aybəniz İsmayılova “Karabakh. Center” portalının və təqdim olunan sərginin əhəmiyyətindən bəhs ediblər. Aybəniz İsmayılova keçmişi unutmamaqla gözəl gələcək qurmaq üçün hər bir azərbaycanlını səfərbər olmağa çağırıb.

Qarabağ Dirçəliş Fondunun PR və kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova bu mühüm vəzifədə Fonda dəstək olmaq, bərpa və quruculuq prosesinin iştirakçısına çevrilmək istəyən şəxslər üçün “İanə et” funksiyasının əlavə olunduğu platformalar haqqında məlumat verib.

Tədbirdə dağıdılmış binaları, yerlə yeksan olunan tarixi abidələri əks etdirən “Qarabağda Urbisid” adlı sənədli film və saytın təqdimat videosu da nümayiş olunub.

# Kino zaman, vəsait və əmək tələb edən prosesdir

## Rüfət Həsənov: “Kino tariximizdə ilk dəfə tammetrajlı animasiya filmi layihəsi hazırlamışıq”

Bayramlar müxtəlif olur. Peşəkarların bayramları onların keçdikləri yola nəzər salmağa vəsilə olur, yeni üfüqlərə, gələcək arzulara yolların axtarışına imkan yaradır. 2 avqust – Milli Kino Günü də bu sahədə çalışanların, elə kino həvəskarlarının da bayramıdır. Azərbaycan kinosunun keçdiyi yol fəxr etməyə dəyən nəticələrlə doludur. Bu peşə bayramı hər il həm də kino işçilərinin bir hesabatı kimi qeyd edilir. Azərbaycan kinosu yeni inkişaf yolundadır və əminik ki, bu yol kino sənətimizin yeni mərhələyə çıxmasına şərait yaradacaq. Əlamətdar gün ərəfəsində Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənovla həmsöhbət olduq.

*– Rüfət müəllim, istərdim ki, son bir ildə kino sahəsində görülən işlərə nəzər salaq...*

– Bu vəzifədə fəaliyyətə başladığımız ilk gündən cari vəziyyəti təhlil etdik və belə bir qənaətə gəldik ki, bu sahədə bir çox islahatlara ehtiyac duyulur. İslahatları əsasən üç istiqamətdə həyata keçirməyi qərarlaşdırdıq və iş hələ də davam edir. Əsas məqam kino sahəsində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçiddir. Çünki digər sahələrdə bu keçid baş verib, lakin kinoda hələ də biz köhnə, planlı iqtisadiyyatın qaydalarına əsasən işləyirik. Deməli, bu sahədə mütləq islahat lazımdır. Birinci istiqamət normativ-hüquqi bazanın təkmilləşdirilməsidir. Burada müəyyən dəyişikliklərə ehtiyac var ki, bu da daha rahat, sərbəst və müasir şəkildə kino sənayesinin inkişafına şərait yaradacaq. Buraya kino haqqında qanuna aid olan məsələlər daxildir. Qeyd edim ki, kino haqqında qanun 1998-ci ildən bəri təkmilləşdirilməyib və həmin qanunun müasir kino şəraitinə uyğunlaşdırılmasına ehtiyac var. Eyni zamanda Nazirlər Kabinetinin müvafiq qərarının əlavəsi üzrə qonorarların maksimum həddinin artırılması və satınalma haqqında qanunun kino sahəsinə uyğunlaşdırılması zəruridir. Hazırda bu işlərlə bağlı bizə dəstək verilir və inanırıq ki, bu məsələlər yaxın zamanda öz həllini tapacaq.

İkinci istiqamət infrastrukturdur. İnfrastruktur deyəndə, sadəcə, maddi-texniki bazanı nəzərdə tutmuruq. Biz 1982-ci ildən bəri ilk dəfə “Azərbaycanfilm” Kinostudiyası üçün ən müasir avadanlıqlar aldıq. Həmin avadanlıqlar başda Almaniyadan olmaqla dünyanın qabaqcıl şirkətlərindən alınıb. Hazırda dövlət dəstəyi ilə çəkilən filmlər – Elçin Musaoğlunun “Məryəm”, Vaqif Mustafayevin “Həyat, deyəsən, gözəldir” ekran əsərləri yeni avadanlıqlarla lentə alınır. Bundan əlavə, 1965-ci ildən bəri kinostudiyada, ümumiyyətlə, təmir-bərpa işləri aparılmırdı. Daxili imkanlarımız hesabına müəyyən təmir işlərini həyata keçirməyə başlamışıq.

İslahatın üçüncü istiqaməti isə insan kapitalı ilə bağlıdır. Yəni kino sahəsində çalışan insanların təlim-tədris prosesinə cəlb edilməsi və s. məsələlər.

*– İslahatlardan söz düşmüşkən, Azərbaycan Film Komissiyası haqqında da məlumat verərdiniz.*

– Film Komissiyası (“Filming Azerbaijan”) da infrastruktura aid olan bir məsələdir. Biz təkcə fiziki infrastruktur deyil, həm də müasir yanaşmalara diqqət ayırdıq. Azərbaycan ərazisində film lentə almaq üçün çox əlverişli məkanlar mövcuddur. Habelə ölkəmizin iqlim fərqliliyi, təbiətinin gözəlliyi və rəngarəngliyi xarici istehsalçı şirkətlər üçün çox böyük maraq kəsb edir. Azərbaycanı bölgə səviyyəsində bir çəkiliş məkanı kimi dünya kinematoqrafiyasına təqdim etmək və inteqrasiya istiqamətində böyük layihəmiz mövcuddur. Bildiyiniz kimi, layihənin təqdimatına Türkiyə Rusiya, Serbiya, Ukrayna və Avstriyadan tanınmış mütəxəssislər qatılmışdılar. Bu işdə artıq ilk addımlar atılıb. Sayt fəaliyyətdədir, məkanların kataloqu təqdim olunur. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə çəkilişlər aparılaraq kataloqa daxil edilib. Bu yaxınlarda isə “Netflix” platformasının nüfuzlu bir layihəsi Azərbaycanda lentə alınacaq. Təəssüf ki, pandemiya səbəbindən bu istiqamətdə daha genişmiqyaslı işlər görmək mümkün deyil. Lakin pandemiyanın bitməsi ilə, əminəm ki, Azərbaycan ərazisində, bir çox dünya miqyaslı filmlər lentə alınacaq.

O ki qaldı bu il ərzində həyata keçirilən və davam edən islahatlara, qeyd etməliyəm ki, tam şəffaf və obyektiv kino layihələri müsabiqəsi keçirildi. Bizdə bu günə kimi ssenari müsabiqələri mövcud idi, lakin beynəlxalq təcrübəyə əsasən, kino layihələri müsabiqəsinin keçirilməsi daha məqsədəuyğundur. Əvvəlki dövrlərdə müsabiqədə qalib gəlmiş ssenari ən yaxşı halda “Azərbaycanfilm” kimi dövlət studiyalarının bazasında reallaşdırılırdı. Lakin biz dövlət-özəl əməkdaşlığının, davamlı rəqabətin və ümumilikdə özəl sektorun inkişafını prioritet kimi görürük. Özəl sektoru inkişaf etdirmək üçün belə müsabiqələr çox vacibdir. Mədəniyyət Nazirliyi tərəfindən elan olunmuş “Böyük Qayıdış” qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsi haqqında da ictimaiyyətimiz artıq məlumatlıdır. Müsabiqənin pitçinq mərhələsində iştirak hüququ qazanan 26 layihə münsiflər heyəti tərəfindən bədii-kinematoqrafik keyfiyyətləri nəzərə alınaraq qiymətləndirilib. Seçim münsiflərin açıq səsverməsi yolu ilə həyata keçirilib və 11 layihə qalib olub. Bunların sırasında animasiya layihələrinə diqqət çəkmək istərdim ki, ən böyük vəsait də məhz bu sahəyə ayrılıb. Animasiya üzrə iki layihə qalib gəldi və ikisi də özəl sektora məxsusdur. Bu, çox önəmli addım idi.

> Hazırda bölgənin ən güclü iqtisadiyyatına malik ölkəsi kimi nüfuzlu bir film festivalımız olmalıdır. Bununla bağlı böyük bir layihə üzərində işləyirik. Bütün bu işləri operativ və cəld həyata keçirmək üçün bizə alət lazımdır. Bu baxımdan Kino Agentliyi bizim müxtəlif istiqamətlərdə iddialı layihələri reallaşdırmağa bir vasitə ola bilər.

*– Bəs Azərbaycan Kino Agentliyinin yaradılması ilə bağlı işlər hansı mərhələdədir?*

– Cənab nazir Anar Kərimov bir neçə müsahibəsində bu agentliyin vacibliyini qeyd edib. Bu sahə də islahatlarımızda prioritet istiqamətlərdən biridir. Artıq bu istiqamətdə bir çox işlərimiz yekunlaşıb. Layihə formasında nəzəri baxımdan hazırdır. Bu təşkilatın yaradılması Azərbaycan kino sənayesinə ciddi təkan verəcək.

*– Filmlərimiz də onlayn beynəlxalq festivallarda uğur qazanırlar...*

– Son illərdə ölkəmizin kino sektoru tərəfindən istehsal olunan filmlərin dünyanın ən nüfuzlu beynəlxalq film festivallarında iştirakı və mükafatlandırılması, habelə film çəkilişinə özəl vəsait qoyuluşunun həcminin artması və tamaşaçı auditoriyasının genişlənməsi kinematoqrafiyamızın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.



Təsadüfi deyil ki, son altı ay ərzində dövlət sifarişi və dəstəyi ilə nəzərdə tutulan film layihələri dünyanın ən nüfuzlu film festivallarında ölkəmizi təmsil edir. Bakı Media Mərkəzi ilə birgə istehsal olunmuş “Sonuncu” sənədli filmi Rotterdam Film Festivalında, gənc rejissor Azər Quliyevin “Təngnəfəs” qısametrajlı bədii filmi 27-ci Sarayevo Beynəlxalq Film Festivalında əsas müsabiqə proqramında təqdim olunub. “Debüt” studiyasında çəkilən film son illər Azərbaycan kinosunun uğurlu layihələrindən sayılır. “Təkbətək”, “Göy köynəkli adam” film layihəmizin Sarayevo Film Festivalında iştirakını, “Azərbaycanfilm” Kinostudiyasında istehsal olunacaq “Mərmər soyuğu” bədii film layihəsinin Rusiyanın dövlət film təşkilatı “Roskino” və Trieste Film Festivalının (İtaliya) beynəlxalq film marketinə seçilməsini göstərmək olar.

*– Milli Kino Günündə kinosevərləri hansı yeniliklər gözləyir?*

– Kinomuzun bayramında fərqli yanaşma və fərqli proqramla kinosevərləri, sözün yaxşı mənasında, təəccübləndirmək istəyirik. Həmin gün YARAT Müasir İncəsənət Məkanı ilə birgə hələ də geniş ictimaiyyətə təqdim olunmamış filmlərin nümayişini həyata keçirəcəyik. İki tammetrajlı və iki qısametrajlı film təqdim olunacaq. Bu filmlər ölkəmizi beynəlxalq festivallarda təmsil edən filmlərdir. Avqustun 2-də saat 19:00-dan Dənizkənarı Milli Park ərazisində dörd film açıq havada quraşdırılmış böyük ekranda geniş auditoriyaya təqdim olunacaq. İnanıram ki, bu əsl kino bayramı əhvalı yaradacaq.

*– Kinoteatrların açılması nə vaxta nəzərdə tutulur?*

– İlk növbədə mən rejissor kimi kinoteatrların açılmasını istəyirəm. Bu yaxınlarda Avropa Film Festivalında olduğum zaman böyük ekranda filmləri izləmək o qədər xoş idi ki, gün ərzində dörd filmə baxırdım. Kino sahəsinin insanları olaraq biz böyük ekranlar üçün çox darıxmışıq. Yenə də deyirəm, burada artıq əsas mövzu insanlarımızın sağlamlığıdır və biz bu mövzuda əlaqədar qurumlara müraciət etmişik, danışıqlar da olub. Ümidvarıq ki, yaxın zamanda bu məsələ ilə bağlı müsbət xəbər ala biləcəyik.

*– Son dövrdə bəzi müvafiq qurumlarla ortaq layihələr də həyata keçirilir...*

– Bəli, bizim ortaq kino layihələrimiz var. İctimai Televiziya ilə birlikdə reallaşdırılan “Bizim kino” çox önəmli bir layihədir. Eyni zamanda “Sabaha saxlamayaq – kino” layihəmiz də var. “Xosrov və Şirin” serialı da lentə alınır. Milli Kino Günündə kinosevərləri “Azərbaycanfilm”in İTV ilə ortaq maraqlı bir layihəsi ilə də sevindirəcəyik. Bundan əlavə, Fariz Əhmədovun “Sonuncu” filmi Bakı Media Mərkəzlə ortaq istehsal edilən ekran əsəridir. Orman Əliyevin təqdimatını keçirdiyimiz “Biz” filmini və daha iki layihəni bu il ərzində təqdim etməyi planlaşdırırıq.

*– Mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdə oldu və diqqət kino sahəsinə yönəlmişdi. Hansı konkret nəticələr əldə edildi?*

– Müştərək layihələr artıq mövcuddur. Buna misal “Fulya” filmini göstərə bilərik. Film hazırda post-prodakşn mərhələsindədir. Əslində, üzərində çalışdığımız bir neçə iddialı layihələrimiz də var. Beynəlxalq təcrübə də göstərir ki, bir il ərzində film çəkilmir, yəni bu müddət ərzində ərsəyə gəlməsi, demək olar, mümkün deyil. Ən yaxşı halda iki il ərzində hazırlıq işləri gedir. Fondlara müraciət, vəsaitin toplanması, hüquqi aspektləri və s. Bu iş zaman, vəsait və əmək tələb edən bir prosesdir.

*– İslahatların üç istiqamətindən biri kimi insan kapitalını qeyd etdiniz. Bu sahədə gənc kadrların yetişdirilməsi və təhsil məsələləri də yəqin ki, diqqət mərkəzindədir?*

> Milli Kino Günündə kinosevərləri, sözün yaxşı mənasında, təəccübləndirmək istəyirik. Həmin gün YARAT Müasir İncəsənət Məkanı ilə birgə Dənizkənarı Milli Parkda hələ də geniş ictimaiyyətə təqdim olunmamış filmlərin nümayişini həyata keçirəcəyik.

– Əlbəttə. İnsan kapitalından danışırıqsa, bu il ərzində iki “İnterakt online” layihəsi təqdimatını qeyd edə bilərik. Bu layihədə BAFTA və Kann film festivallarının laureatları, Andrey Zvyagintsev, Matyo Darras kimi adlar, prodüserlər, festival təşkilatçıları 100-ə yaxın dinləyiciyə onlayn təlim keçdilər. Hazırda ikinci “İnterakt online” layihəsinin proqramına Oskar, Kann, BAFTA və Emmi mükafatlı filmmeykerlərin keçirəcəyi ustad dərsləri ilə yanaşı, peşəkar tyutor tərəfindən aparılan ssenari üzrə vorkşop da əlavə olunub. Bu layihədə bizim gənclərlə Oskar, Kann və BAFTA mükafatlı ssenarist Kristofer Hempton, Kann kinofestivalında “Ən yaxşı qısametrajlı film” nominasiyası üzrə “Qızıl palma budağı”nı qazanan Sameh Alaa öz təcrübələrini bölüşdülər.

Ötən il isə “İnterakt” layihəsi həyata keçirildi. O da çox uğurlu alındı. Kinoda nəzəri deyil, təcrübə daha önəm kəsb edir. Bu layihə əsasında 15-ə yaxın tələbə iştirak etdi və hazırda onların hamısı çəkiliş meydançalarında çalışır. Bu tələbələr 3 hissəyə bölünərək “Məryəm”, İTV-də lentə alınan yeni serialda və “Həyat, deyəsən, gözəldir” filmində fəaliyyət göstərirlər. Yəni onlar nəzəri ustad dərslərindən birbaşa təcrübəyə – çəkiliş meydançasına yönəldildilər. Kinoda yüzlərlə insan çalışır və bizim hazırda boşluğumuz ikinci heyətdədir və çalışırıq bu sahədə kadrlar yetişdirək. Bizim daha böyük bir təlim-tədris layihəmiz var ki, yaxın zamanlarda da bu haqda məlumat veriləcək. Təhsil sahəsində həm Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutu, eləcə də Türkiyə və Gürcüstanla əməkdaşlıq üçün danışıqlarımız davam edir.

*– Yeri gəlmişkən, bu yaxınlarda Gürcüstan səfəriniz necə keçdi?*

– Bu gün ən üzdə olan nümunə Gürcüstan təcrübəsidir. Məsələn, onlarda artıq neçə illərdir Milli Kino Mərkəzi fəaliyyət göstərir. Biz bu təcrübədən yararlanmaq istədik. Danışıqlar apardıq. Qanunvericilik tərəfləri, logistika və digər incəlikləri öyrənməyə çalışdıq. Bundan əlavə, Gürcüstan animasiya sahəsi üzrə ixtisaslaşıb. Bir neçə istiqamətdə müzakirələr oldu. Birinci, müştərək istehsal barədə. Belə ki, biz bir bölgəni əhatə edirik. Əgər Balkan, Skandinaviya və s. bölgələrə nəzər yetirsəniz, filmlərin çox hissəsinin böyük ehtimalla müştərək istehsal olunduğunu görəcəksiniz. Bizdə də bu potensial var və planlarımızda bu istiqamətdə işlər görmək nəzərdə tutulub. İkinci istiqamət üzrə onların Milli Kino Mərkəzinin fəaliyyətini öyrəndik və Kino Agentliyinin yaradılması üçün təcrübə mübadiləsi apardıq. Üçüncüsü Azərbaycan Film Komissiyası və Gürcüstan Film Komissiyasının ortaq layihələri və sonda animasiya sahəsi üzrə müzakirələr etdik.

*– Animasiya ilə bağlı hazırda bizdə hansısa yeni layihə varmı?*

– Animasiya sahəsində islahat paketi hazırlayırıq. Onu da deyə bilərəm ki, Azərbaycan kino tarixində ilk dəfə olaraq tammetrajlı animasiya filmi layihəsi hazırlamışıq. Çox istedadlı bir qrupla bu filmi reallaşdırmağı düşünürük. Filmin mövzusu Azərbaycan nağıllarından ilhamlanaraq müasir gəncliyə yönəldilmiş bir layihədir. Uşaqlarımız gələcəyimizdir və onların tərbiyəsinə investisiya qoyulması vacibdir.

*– “Azərbaycanfilm”də lentə alınan yeni filmlər barədə məlumat verə bilərsinizmi?*

– Mənə belə gəlir ki, son bir ildə rekord sayda filmlər lentə alınır. Hazırda 4 tammetrajlı film çəkilməkdədir və hər biri müştərək istehsaldır. Bundan əlavə, “Salnaməfilm” studiyasında bir neçə film lentə alınır. Məlumdur ki, cənab Prezidentin sərəncamı ilə bu il Aşıq Ələsgərin 200 illiyi qeyd olunur. Rejissor Nizami Abbasın böyük sənətkar haqqında çəkəcəyi film də bu sıradadır. Bu il kinomuz üçün məhsuldar olacaq.

*– Bayaq qeyd etdiyiniz “Böyük Qayıdış” layihəsi üzrə filmlərin çəkilişi nə vaxta nəzərdə tutulur?*

– Əksəri payız mövsümündə istehsalata buraxılacaq. Çünki “Böyük Qayıdış” Qarabağ mövzusudur və Vətən müharibəsi dövrünü əhatə edəcək aylarda lentə alınacaq. Bizim bu layihələrdən gözləntilərimiz böyükdür. Çox uğurlu layihələr seçildiyi üçün müsbət nəticə gözləyirik.

*– Ənənəvi festivallar bərpa olunacaqmı?*

– Ümumiyyətlə, festival strategiyası ilə bağlı bizim bir sıra layihələrimiz hazırlanır. Mənə belə gəlir ki, festivallarda strategiya, vizyon və istiqamət olmalıdır. Hazırda bölgənin ən güclü iqtisadiyyatına malik bir ölkə olaraq nüfuzlu bir film festivalımız da olmalıdır. Bununla bağlı böyük bir layihə üzərində işləyirik. Hələ ki addım-addım bu işlərlə bağlı planları reallaşdırmağa çalışırıq. Biz sizinlə müsahibə boyu bir çox istiqamətlərdən danışdıq. Göründüyü kimi, kinonun bütün sahələri üzrə işlərimiz var və zamanla bütün nəzərdə tutulan layihələrin gerçəkləşməsinə çalışacağıq. Bütün bu işləri operativ və cəld həyata keçirmək üçün bizə alət lazımdır. Həmin alət isə Kino Agentliyi ola bilər. Kino Agentliyi bizim müxtəlif istiqamətlərdə iddialı layihələri reallaşdırmağa bir vasitədir.

*– Müsahibə üçün təşəkkür edir, qarşıdan gələn Milli Kino Günü münasibətilə təbrik edirəm.*

– Sağ olun. Kino sahəsində çalışan hər kəsi təbrik edir və uğurlar arzulayıram.

**Lalə AZƏRİ**

# Fərman Salmanovun 90 illiyi münasibətilə

## Milli Kitabxana virtual sərgi təqdim edib

İyulun 28-də məşhur azərbaycanlı neftçi, mühəndis-geoloq, Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanovun (1931–2007) 90 illik yubileyi tamam oldu. Fərman Salmanovun adı dünya neft tarixinə Rusiya Federasiyası Tümen vilayətinin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olub. Fərman Salmanov heç bir neft ehtiyatının olmadığı iddia edilən Qərbi Sibirdə 1961-ci ildə ilk neft yataqlarını üzə çıxarıb. Onun rəhbərliyi altında karbohidrogen ehtiyatları ilə zəngin yüzdən artıq irihəcmli yataq kəşf edilərək istismara verilib.




F.Salmanovun şəxsiyyətində tədqiqatçı-alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil edib. Onun neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilib və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynayıb.

F.Salmanov keçmiş SSRİ-nin orden və medallarına, Rusiya Federasiyasının "Əməkdar geoloq"u fəxri adına, Azərbaycanın "Şöhrət" ordeninə (2001) layiq görülmüşdü. 2019-cu ildə Rusiyanın Surqut şəhərinin hava limanına F.Salmanovun adı verilib.

Məşhur həmvətənimizin 90 illik yubileyi münasibətilə, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Fərman Salmanov – 90" adlı virtual sərgi hazırlanıb. Virtual sərgidə Fərman Salmanov haqqında rəsmi sənəd, fotolar, mükafatları, müəllifi olduğu kitablar, eləcə də haqqında yazılan kitab və məqalələr nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər bu linkdən istifadə edə bilərlər: http://anl.az/el/vsb/Ferman_Salmanov_90/index.htm

Azərbaycan xalqı dünya sivilizasiyasına töhfələr vermiş, özünün bənzərsiz milli koloritini, milli mənliyini qoruyub saxlamış övladları ilə daima fəxr edir, qürur duyur.

# Şəhidliyin uca zirvəsində

Vətənini ürəkdən sevən, onun yolunda şirin canından keçən mərd oğullardan biri də Orxan Mübariz oğlu Dənziyevdir. Lerik rayonunun Laman kəndindən olan bu dağ vüqarlı igid ulu yurd yerimiz Qarabağ uğrunda gedən haqq savaşımızda şəhid olanda ömrünün 19-cu ilini yaşayırdı...



Orxan yetkinlik yaşına çatanda ürəyində Vətənə, millətə sevgi hissi boy vermişdi. 2020-ci ildə Milli Ordu sıralarına yola düşəndə də amalı sinəsini yanar od edib, təcavüzkar erməni dığaların bağrını çatlatmaq idi. Əsgərlik həyatı ön cəbhədən başlanmışdı. Çox keçmir, nümunəvi xidməti, hərbi təlimlər zamanı igidliyi onu əsgər yoldaşlarının, komandirlərin sevimlisinə çevirir.

Artıq üç ay idi əsgər Orxan Dənziyev Vətən qarşısında övladlıq borcunu ləyaqətlə, vicdanla yerinə yetirirdi. İkinci Qarabağ müharibəsi başlanır. O da əsgər yoldaşları ilə hərb meydanına girir və otuz ilə yaxın Vətən torpaqlarını əsarətdə saxlayan düşməndən qisasını alacağına and içir. Ağdərə-Tərtər istiqamətində qəhrəmancasına döyüşür, Vətən torpağının hər qarışı uğrunda can qoyur. 2020-ci ilin 15 oktyabrında qəfil atılan yağı gülləsinin qurbanı olur.

Gənc yaşında özünü Vətəninə fəda edən Orxan Dənziyev ucaldığı şəhidlik zirvəsində adını qəhrəmanlıq tariximizə yazdı. Ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda" medalı onun göstərdiyi şücaətə dövlətimiz tərəfindən verilən qiymətdir.

Lənkəran Regional Mədəniyyət İdarəsinin Lerik rayonu üzrə baş məsləhətçisi, şəhidin qohumu Müqəddəs Dənziyev deyir: "Orxan Vətəninə, xalqına, torpağına layiqli övlad kimi böyümüşdü. Məhz buna görə də ömrünü Vətəni üçün yaşamağı bacardı. İndi o, təkcə ailəsinin, Dənziyevlərin deyil, bütün Azərbaycan xalqının oğludur. Biz Vətənin qürurunu hər şeydən üstün tutan, onun yolunda canından keçən Orxanla fəxr edirik".

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "Kəndimizdəyəm, evimiz hansı tərəfdədir?"

44 günlük II Qarabağ müharibəsi Vətən oğullarının cəsarət və mübarizliyini ortaya qoydu. Biz də torpağı müqəddəs bilib uğrunda canını-qanını əsirgəməyən igidlərimizi tanıtmağa davam edirik. Bu dəfə şəhid baş leytenant Teymur Məcidzadə haqqında söz açacağıq.

Teymur Tehran oğlu Məcidzadə 1992-ci il oktyabrın 10-da Füzuli rayonunun Gecəgözlü kəndində anadan olub. 1993-cü ilin 23 avqustunda Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonu işğal olunur və onun ailəsi də isti ocağından qaçqın düşərək Bakıya pənah gətirir. Teymur paytaxtın Xətai rayonundakı 25 saylı liseydə təhsil alır. Coğrafiya və Azərbaycan dili üzrə fənn olimpiadasında iştirak edərək birinci yerə layiq görülür. 2010-cu ildə təhsilini başa vurub Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunur. Ali məktəbi bitirərək Vətən borcunu ödəmək üçün Füzuli rayonundakı N saylı hərbi hissədə xidmət keçir. Bir addımlığında ata yurdunun düşmən tapdağında olması onun qüruruna toxunur, qəlbini ağrıdırdı. Hərbi xidmətini uğurla başa vurduqdan sonra bir sıra sahələrdə işləyir. Lakin yurd nisgili, hərb sahəsinə olan sevgisi bu şanlı formanı yenidən geyinməsinə rəvac verir. 2018-ci ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində üçaylıq xüsusi təlim keçərək leytenant rütbəsi alır. Tağım komandiri kimi Bakı şəhərindəki N saylı hərbi hissədə xidmətə başlayır. Xidməti dövründə nizam-intizamı ilə seçilir. Eyni zamanda italyan dilindən xüsusi kursa göndərilir...

Ötən ilin 27 sentyabrında başlanan Vətən müharibəsində öz şəxsi heyəti ilə ön cəbhəyə yollanır. Cəbrayılın, Füzulinin azad olunması uğrunda gedən ağır döyüşlərdən sonra uğurlu əməliyyat Xocavənd rayonu istiqamətində davam etdirilir. Daha sonra öz şəxsi heyəti ilə birlikdə Şuşa şəhərinin azad olunması uğrunda döyüşlərə qoşulur, böyük şücaət göstərir. Hərbi və coğrafi bilikləri sayəsində tabeliyində olan 104 nəfərlik şəxsi heyəti təhlükəsiz mövqeyə yerləşdirməyi bacarır.

Teymurun son döyüşü arzularımızın şəhəri Şuşanın azadlığı uğrunda olur. Noyabrın 8-də – Ali Baş Komandanın Şuşanın azad olunması müjdəsini verdiyi gün mənfur düşmənin tör-töküntülərinin qala-şəhərimizdən tamamilə təmizlənməsi üçün gedən qanlı döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir.

Şəhidin atası Tehran Nəcəfov qeyd edir ki, Füzulidə olarkən oğlu onunla əlaqə saxlayıb: "Zəng elədi ki, ata, kəndimizin girəcəyində qoyulan heykəlin yanındayam, evimiz hansı tərəfdədir? Kənddə evlərin hamısı yerlə yeksan edilib. Söylədim ki, oğlum, 28 il keçib, heç mən gəlsəm, evimizi tapa bilmərəm. Oğlumla sonuncu dəfə oktyabrın 30-da əlaqə saxlaya bildik. Dedi ki, narahat olmayın, Ordumuz inamla irəliləyir".



Anası Yasəmən Camalova oğlunun uşaqlıqdan futbola böyük həvəsi olduğunu deyir: "Teymur "Neftçi" klubunun sadiq fanatlarından idi. Teymur kimi mərd oğulların sayəsində qaçqın-köçkün adından azad olduq. Yaxın zamanlarda da doğma yurdumuza qayıdacağıq. Allah Teymura və bütün şəhidlərimizə rəhmət eləsin".

Teymur Məcidzadə noyabrın 9-da Bakıda II Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Doğum günündə zəng edib anasından halallıq istəmişdi...



Şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. Öz yurdsevərliyi ilə bu ali məqama ucalaraq xalqımıza Qələbə sevinci yaşadanlardan biri də Tural Taryel oğlu Məmmədovdur.

O, 5 noyabr 1999-cu ildə Daşkəsən rayonunda anadan olub. Bir müddətdən sonra ailəsi Bakıya köçür və Tural 2006-cı ildə paytaxtın Binəqədi rayonunun Rəsulzadə qəsəbəsindəki 99 nömrəli orta məktəbə gedir. IX sinfi bitirib C.Naxçıvanski adına Hərbi liseyə daxil olsa da, səhhəti ilə əlaqədar orada təhsilini davam etdirə bilmir. 2017-ci ildə yaşadığı Mehdiabad qəsəbə 1 saylı tam orta məktəbi əla qiymətlərlə bitirir. Müəllimlərinin dediyinə görə, Tural tərbiyəsi və yaxşı oxumağı ilə onların sevimli şagirdi olub. O, əsgəri borcunu yerinə yetirdikdən sonra işləyərək ailəsinə kömək edib.

2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda Tural könüllü olaraq orduya yazılır. Öncə Gəncədə təlimlərdə iştirak edir. Döyüş yolu Füzulidən başlayır, sonra digər ərazilərimizin işğaldan azad olunmasında iştirak edərək qəhrəmanlıq göstərir. Şuşa uğrunda gedən qanlı döyüşlərdə 6 yaralı əsgər yoldaşını xilas edir. Vətən müharibəsinin son günündə, noyabrın 9-da ürəyindən aldığı qəlpə yarası nəticəsində şəhadətə yüksəlir.

Şəhidin anası Könül Həsənova söyləyir ki, Tural mərd, cəsur uşaq olub: "Döyüşə gedəndə mən pis olmuşdum, o da mənə təskinlik verib deyirdi ki, səni, anaları, bacıları, Vətəni kim qorumalıdır? Əlbəttə, mən getməliyəm, mən qorumalıyam, bizlər qorumalıyıq! Cəbhədə olanda da hər gün zəng edirdi, maraqlanırdı. Hiss edəndə ki, mən ağlayıram, deyirdi, ana, ağlama, sən ağlayanda mən dözə bilmirəm. Mənim göz yaşıma qıymırdı. Axırıncı danışığımız da noyabrın 5-də oldu. Doğum günündə mənə zəng etdi. Təbrik elədim, dedim ki, özündən muğayat ol. Elə bil ürəyinə dammışdı, məndən halallıq istədi. Mən də dedim ki, bala, niyə elə deyirsən, ananın haqqı həmişə uşağı üçün halaldı, özü də sənin kimi uşağa halal olsun... Ayın 5-dən sonra oğlumdan zəng gəlmədi. Şəhid olmamışdan əvvəl yuxuma girdi, mən çox narahat idim. Hamı mənə təsəlli verirdi ki, bəlkə telefonuna nəsə olub, zəng edə bilmir. Narahat olma, zəng edər. Amma ürəyimə dammışdı ki, oğluma nəsə olub... Bircə onunla təsəlli tapıram ki, mənim balam torpaq, Vətən uğrunda şəhid oldu. Hara gedirəm, hamı oğlumun mərdliyindən, cəsurluğundan, dostları ilə gözəl rəftarından danışır. Allah mənim balama da, bütün şəhidlərimizə də rəhmət eləsin".

Bacısı Yasəmən Məmmədova isə deyir ki, Tural çox yaxşı qardaş idi: "İki yaş məndən böyük idi, həmişə qayğıma qalırdı. Heç kəsi, hətta anamı da qoymurdu mənim xətrimə dəysin. Turalın çox gözəl rəsm çəkmək qabiliyyəti vardı. Mən də hər zaman onun kimi rəsm çəkmək istəyirdim. Əkiz olmasaq da, qardaşım şəhid olan an hiss etdim. Həmin an yerimdə qərar tuta bilmirdim... Mən Vətənimiz uğrunda şəhid olan qardaşımla fəxr edirəm...".

Yaşadığı şərəfli ömür yolunda Tural heç kimi incitmədi və indi isə ölümü ilə ən uca zirvəyə yüksəldi. Vətənə, bayrağa bağlı olan igidimiz müharibəyə yollanmamışdan əvvəl üçrəngli bayrağımızla Şəhidlər xiyabanını ziyarət edərək orada şəhidlərimizin qanını düşməndən alacağına and içmişdi. O, andına sadiq qalaraq ziyarət etdiyi şəhidlərimizin yanında uyuyur.

Tural Məmmədov noyabrın 9-da Xırdalan şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**Səbinə ƏLİBALAQIZI**

# Əlyazmalar İnstitutunun əməkdaşları Atatürk Kitabxanasında araşdırma aparıblar

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əzizağa Nəcəfzadə və Beynəlxalq əlaqələr şöbəsinin Əlyazmaların elmi ekspozisiyası sektorunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur Nəcəfova Türkiyənin Atatürk Kitabxanasında elmi araşdırma aparıblar.

Əlyazmalar İnstitutundan verilən məlumata görə, alimlər Atatürk Kitabxanasının müdiri Əli Şəfəq Özdəmirlə görüşüb, kitabxananın fondunda mühafizə olunan materiallar, buradakı 4760 cild əlyazmanın toplanılma tarixi, mövzu və dil üzrə təsnifatı, ekspozisiyası və kataloqlaşdırılması barədə ətraflı bilgi əldə ediblər. Həmçinin əlyazmaların bərpa və rəqəmsal arxivdə elektronlaşdırılması işi ilə tanış olublar.

Kitabxana rəhbərliyi tərəfindən Əlyazmalar İnstitutunun əməkdaşlarına "Atatürk Kitabxanasında qorunan türkcə əlyazma divanlarının əlifba kataloqu" və Hüseyn Türkmənin "Türkiyə kitabxanaları əlyazma kataloqları (1923-2006)" hədiyyə olunub.

Qeyd edək ki, Atatürk Kitabxanasının fondunda Nəsimi, Xətai, Füzuli kimi görkəmli Azərbaycan şairlərinin anadilli divanlarının nüsxələri də mühafizə olunur.

# "Gülüşün qönçə, göz yaşın şəbnəm..."

Klassik poeziyamızın tanınmış nümayəndələrindən biri də Heyran xanım Dünbülüdür. Məhəmməd Füzuli ədəbi məktəbinin davamçısı hesab edilən şairənin tərcümeyi-halı barədə səhih məlumat azdır. Şairə haqqında söz açan ədəbiyyatşünaslardan M.İbrahimov onun 80, Əzizə Cəfərzadə 70 və Cənnət Nağıyeva isə 60 il ömür sürdüyünü qeyd ediblər.

Heyran xanım 1790-cı ildə Naxçıvanda dünyaya göz açıb. O, məşhur və imkanlı Dünbülü tayfasındandır. Dövrü üçün mükəmməl təlim-tərbiyə alıb. Ərəb və fars dillərini dərindən mənimsəyib. Erkən çağlardan poeziyaya maraq göstərib. Rusiya-İran müharibələri (1803-1813, 1826-1828) ərəfəsində ailəsi ilə birlikdə Cənubi Azərbaycana köçüb. Bir müddət Urmiya, Xoy və son olaraq Təbriz şəhərində yaşayıb.

Heyran xanım haqqında ilk dəfə tanınmış tədqiqatçı Məhəmmədəli Tərbiyət Təbrizi "Danişmədani-Azərbaycan" adlı qiymətli kitabında məlumat verib. Yeri gəlmişkən, qeyd edək ki, bu kitab Orta əsrlərdən üzü bəri Azərbaycan ədəbiyyat və mədəniyyətinin görkəmli nümayəndələri haqqında zəngin mənbədir. M.Tərbiyət kitabında qeyd edib ki, Heyran xanım əzmkar, mübariz və



azadfikirli bir şairə olub. Onun şeirlərindən duyulan və görünən mənəvi keyfiyyətlər oxucuda dərin maraq doğurur. Çünki şeirlərinin mayasında bir çağırış və tələb var. O sanki insanları qəflət yuxusundan oyanmağa, hüquqlarını müdafiə və haqlarını tələb etməyə səsləyir. Yaradıcılığı ilə tanış olduqca hiss edirsən ki, Heyran xanım taleyindən heç də razı olmayıb.

Ömrünü taleyindən gileyli və küskün başa vurub. Araşdırmalarda bu, onun övladının olmaması ilə əlaqələndirilib. Bildirilir ki, şairəyə sevdiyi həyat yoldaşı xəyanət edir. O, bu vəfasızlıqdan bərk sarsılır. Ailəsinin dağılmasını heç cür qəbul edə bilmir, özünü bədbəxt hesab edir. Aldandığını özünə bağışlamayan, vəfasızlıqdan və talesizlikdən sarsılan Heyran xanım deyir:

*Vurdun ol qədər sən vəfadan dəm,*
*Xatirimdə nə şübhə qaldı, nə qəm.*
*Gülüşün qönçə, göz yaşın şəbnəm,*
*Məni aldatdı, bilmədim nə edim,*
*Qəlbimi zar, qərqi-xun etdi.*

Şairə bir neçə əsərində bu kimi şikayətləri ilə sevdiyi şəxsə münasibətlərini, puç olan ümid və arzularını bütün təfərrüatı ilə bəyan edir.

Ömrünün sonuna kimi Təbriz şəhərində yaşayan Heyran xanım bu qədim vətən torpağında da bir rahatlıq tapmır. Sanki özünü zindandakı kimi hiss edir. Bir tərəfdən də təbrizli qadınların inkişafdan qalması və hüquqsuzluğu onu narahat edir. O, yaradıcılığında xalqının bu problemlərinə də yer ayırır. Onların hüquqsuzluğundan narahatlığını dilə gətirir:

*Yoxdur o sənəm, onda*
*dü əbruyi-xəminə,*
*Biz səcdə edək, qoy bütü*
*bütxanə dağılsın.*
*Heyran, çü yanarsan o qədər*
*şəmə müqabil,*
*Bir vəz ilə çək şölə ki,*
*pərvanə dağılsın.*

Eyni zamanda romantik şairə olan Heyran xanım həyat yoldaşının timsalında eşqə qiymət verib. Onu hər şeydən uca dəyərləndirib. M.Füzulinin məşhur qəzəlinə nəzirə olaraq yazıb:

*Olubdu qəm yatağı*
*şad gördüyüm könlüm,*
*Dağıldı qüssədən*
*abad gördüyüm könlüm...*

Yaradıcılığı janr, üslub, bədii sənətkarlıq baxımından çox zəngin olan Heyran xanım klassik poeziya ənənələrini uğurla davam etdirib, Azərbaycan şairlərinin irsi ilə yaxından maraqlanıb. O, klassik poeziyanın qəzəl, müxəmməs, müstəzad, rübai və məsnəvi janrlarında əsərlər qələmə alıb. Özündən sonra 4500 beytdən ibarət divanı qalıb.

Nəsimiyə yüksək dəyər verən şairə onun kimi insanı uca varlıq hesab edib. Nəsiminin bənzərsiz yaradıcılığından təsirlənsə də, hürufilik ideyalarını təkrar etməyib... Heyran xanım Molla Pənah Vaqif, Qövsi Təbrizi və Hafiz Şirazi poeziyasını da təqdir edib.

Taleyi ilə barışmayan şairə ümidini Tanrıya bağlayır. Müəllif "Ağlayıram" qəzəlində deyir:

*Könül ki, hicrdən oldu fikar, ağlayıram,*
*Bütün vücudum olub biqərar, ağlayıram.*
*Nədən şikayət edim,*
*bəxtidən və ya göydən?*
*Məni əzir sitəmi-ruzigar, ağlayıram.*

Şairə ömrünün müdrik çağlarında ikən Təbrizdə dəhşətli zəlzələ baş verir. Şəhər böyük dağıntıya məruz qalır və xeyli insan həlak olur. Bundan bərk təsirlənən Heyran xanım "Təbrizdə zəlzələ" adlı əsərini qələmə alır:

*Oldu, yarəb, həlak insanlar!*
*Suvarıb torpağı qızıl qanlar.*
*Oldu çöllər cavanlara mədfən,*
*Çoxlarına nə qüsl var, nə kəfən.*
*Sinəsi dağlı, gözləri giryan,*
*Minlər ilə ana edər əfqan.*
*Bala dərdilə cümləsi ağlar,*
*Nə bir ehsan, nə xətmi-Quran var...*

Əsərlərini zəmanəsinə görə aydın bir dildə yazan, bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə edən Heyran xanım 1848-ci ildə Təbrizdə dünyasını dəyişib, bu şəhərdə də dəfn olunub.

**Savalan FƏRƏCOV**

# Xalq rəssamı Güllü Mustafayevanın yaradıcılığı

XX əsr Azərbaycan təsviri sənət tarixində uğurlu yaradıcılıq fəaliyyəti ilə seçilən qadın rəssamlarımız çox olub. Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya, Bədurə Əfqanlı, Güllü Mustafayeva, Xalidə Səfərova, Vəcihə Səmədova, İzzət Seyidova, Bəyim Hacıyeva, Elmira Hüseynova, Həyat Abdullayeva, Zivər Məmmədova, Münəvvər Rzayeva və başqaları təsviri sənətin müxtəlif sahələrində fəaliyyət göstəriblər. Bu yazıda Xalq rəssamı Güllü Hacı Naim Mustafa qızı Mustafayevadan (1919-1994) söhbət açacağıq.



O, əslən Şamaxıdan olsa da, Türkmənistanın Cərco şəhərində anadan olmuşdu. 1927-ci ildə ailələri Bakıya köçüb. Atası M.Ə.Sabirin qohumu, anası isə S.Ə.Şirvaninin nəslindən olublar. Mürəkkəb və çətin həyat yolu keçmiş G.Mustafayeva ixtisas təhsilini Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində almışdı. 1938-ci ildə məktəbi bitirdikdən sonra müstəqil bədii yaradıcılıq fəaliyyətinə başlayıb. Rəssam yaradıcılığı boyu süjetli tablo, portret, mənzərə və natürmort janrlarında diqqəti cəlb edən əsərlər qalereyası yaradıb. G.Mustafayeva Macarıstan, Fransa və Tunisdə yaradıcılıq ezamiyyətində olub və öz yaradıcı manerasını zənginləşdirib. Rəssamın Bakı şəhərində dəfələrlə fərdi sərgiləri (1960, 1962, 1965, 1971, 1975, 1979) təşkil olunub. Əsərləri ölkəmizdə Milli İncəsənət Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Azərbaycan Dövlət Rəsm Qalereyasında saxlanılır. G.Mustafayevanın bədii yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilib, o, "Əməkdar rəssam" (1973) və "Xalq rəssamı" (1992) fəxri adlarına layiq görülüb.



G.Mustafayevanın süjetli tablo və portret əsərlərindən "M.F.Axundovun evində axtarış" (1938), "Balaca musiqiçi" (1938), "Nizami qoca aşığı dinləyir" (1941), "Leyli və Məcnun mədrəsədə" (1941), "Məhsəti Gəncəvinin portreti" (1947), "Pambıqçı Bəsti Bağırovanın portreti" (1950), "Məcnunun Leylinin məzarı üzərində ölməsi" (1952), "Professor, oftalmoloq Umnisə Musabəyovanın portreti" (1957), "Rəssam Səttar Bəhlulzadənin portreti" (1963), "Ceyran Bayramovanın portreti" (1970), "Rəssam Maral Rəhmanzadənin portreti" (1970), "Süleyman Rəhimovun portreti" (1970), "Abdulla Şaiqin portreti" (1971) və başqalarını qeyd etmək olar. Onun yaratdığı portretlər qalereyasına nəzər yetirdikdə incəsənət xadimlərinin, müxtəlif peşə sahiblərinin yaddaqalan bədii surətlərini görmək olar. Rəssam XII əsrdə yaşamış şairə, məşhur rübailər müəllifi Məhsəti Gəncəvinin portretini son dərəcə ustalıqla işləyib. Obrazı işləyərkən ən incə detallara vararaq uğurlu bədii təsir qüvvəsinə malik əsər yaradıb. Şairənin mənalı obrazı, dövrü və mühiti, geyim üslubu tabloda müvəffəqiyyətlə əks olunub. Bu, rəssamın şah əsərlərindən hesab olunur.



Rəssam mənzərə janrında da maraqlı əsərlər yaradıb. "Xaçmaz mənzərəsi" (1944), "Quba mənzərəsi" (1945), "Dilican. Etüd" (1945), "Şuşa mənzərəsi" (1948), "Qusar mənzərəsi" (1952), "Quba mənzərəsi" (1957), "Buzovna. Etüd" (1968) kimi nümunələr bu qəbildəndir. G.Mustafayevanın mənzərə əsərlərinin adlarına belə diqqət yetirdikdə onun ölkəmizin dilbər guşələrinə necə yaradıcı məhəbbətlə bağlandığını və təbiət gözəlliklərini rənglərin sirli dili ilə rəssam təxəyyülündən süzərək tamaşaçısına çatdırmaq istədiyini duymaq olar.

G.Mustafayevanın yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən və onun yaradıcılığının əsas leytmotivinə çevrilmiş bir istiqamət də var. Bu, rəssamın bütün yaradıcılığı boyu sevərək yaratdığı "Bizim uşaqlar" silsiləsi, müxtəlif yaş qruplarında olan uşaqların portretləridir. Uşaq portretini işləmək, təbii ki, fərəhli olduğu qədər də mürəkkəbdir. Məsum uşaqlara məxsus daxili hissləri təsvir etmək və onların daxili dünyasını kətanda canlandırmaq olduqca böyük zəhmət tələb edən işdir. Rəssam yaratdığı silsilə uşaq portretlərində onların fərdi xüsusiyyətlərini, şəxsi bacarıq və keyfiyyətlərini əks etdirməyə çalışıb, palitrasında əlvan rəng qammasına, sərbəst yaxı manerasına, sadə kompozisiya quruluşuna üstünlük verib. "Bizim uşaqlar" silsiləsinə daxil olan "Rahilə" (1960), "Aytən" (1964), "Ülkər" (1964), "Skripkaçalan Sevinc" (1965), "Leyla" (1970), "Sevinc" (1970), "Rəna" (1971), "Sevda" (1972), "Lalə" (1973), "Gülşən" (1975), "Rəna" (1982) və başqa əsərlər buna nümunədir. 1979-cu ilin BMT tərəfindən "Beynəlxalq Uşaq İli" elan edilməsi münasibətilə rəssamın Bakıda "Vətənin xoşbəxt balaları" adlı fərdi sərgisi təşkil olunub. Həmin sərgi və rəssamın yaradıcılığı haqqında həmkarı, Əməkdar incəsənət xadimi Sadıq Şərifzadə "Bakı" qəzetində (12.07.1979) yazırdı: "G.Mustafayevanın yaradıcılıq yolu, istiqaməti rəssamlıq sənətimizdə yenidir. Həm də çox çətin yoldur, çünki uşaqlarla işləməyin özü çətindir. Uşağı uzun müddət eyni vəziyyətdə dayanmağa vadar etmək olmur. Gərək böyük müşahidəçi, çox həssas olasan ki, onlardakı xarakterik cizgiləri tutasan. Balacalıqda uşaqların çoxu bir-birinə oxşayır. Onları fərqləndirmək, fərdi xüsusiyyətləri ilə tamaşaçılara təqdim etmək üçün gərək yüksək istedad yüksək peşəkarlıqla birləşsin. G.Mustafayevanın əsərlərində biz bu məziyyəti görürük".

Qeyd etdiyimiz kimi, o, xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olmuş, görüb müşahidə etdiyi hal, hadisə və məkanları bədii biçimdə öz təxəyyülündən keçirərək kətanda canlandırmış, diqqəti cəlb edən tablolar yaratmışdır. Rəssam 1960-cı il Fransa səfərindən "Rəssamlar meydanı", "Paris, Opera teatrı", "Eyfel qülləsi", "Meton şəhəri", 1961-ci il Tunis səfərindən "Ərəb qızı Lətifə", "Tunisli məktəbli", "Qabesalı qadın", "Qoca", "Kasıb ərəb", 1962-ci il Macarıstan səfərindən "Budapeştdə küçə", "Macar aktrisası", "Budapeştli qız", "Dunay sahillərində" kimi əsərlər ərsəyə gətirmişdir.

G.Mustafayeva mürəkkəb ömür yolu keçib. Şamaxıda zəlzələdən sonra ailəsi Türkmənistana köçən rəssamın atası ailədəki qız övladlarının vətəndə böyümələri üçün Bakıya köçür. Güllü xanım hələ Rəssamlıq Məktəbində tanış olduğu, gələcəyin tanınmış rəssamı Həsən Haqverdiyevlə ailə həyatı qurur. Həyat yoldaşı sürgün olunan rəssam məcburiyyət qarşısında qalaraq ondan boşanır. Bir daha həyat yoldaşının qayıtmayacağını düşünən G.Mustafayeva ikinci dəfə rəssam Nəcəfqulu Rəfiyevlə ailə həyatı qurur. Sonradan bəraət alıb qayıdan H.Haqverdiyevlə bir daha həyat yolları bağlanmır. Və beləcə, bir şəhərdə və binada (Rəssamlar evi) bu iki rəssam öz həyatlarını yaşayırlar. Kino kimi həyat, ziddiyyətlərlə dolu ömür yolu.



Fikirlərimizi rəssamın "Ədəbiyyat və incəsənət" qəzetində (03.02.1979) dərc olunmuş öz sözləri ilə yekunlaşdırmaq istərdik: "Mən yaradıcılığımı uşaqlara həsr etmişəm. Günəşli diyarımızın xoşbəxt uşaqları – gül nəfəsli körpələr neçə-neçə əsərimin qəhrəmanı olub. Hər dəfə də mənə elə gəlib ki, bu mövzuya yenicə müraciət edirəm. Dəfələrlə xarici ölkələrdə olmuşam. Balaca dostlarımla görüşüb söhbət etmişəm, portretlərini işləmişəm. Onları şən, xoşbəxt görəndə əlim də yaxşı işləyib, cizgilər, boyalar sanki öz-özünə tapılıb. Belə anlarda onlarla birgə mən də sevinmişəm, əsərimin yaxşı çıxacağına ürəkdən inanmışam".

**Əsəd QULİYEV**
**sənətşünas, AMEA-nın dissertantı,**
**Rəssamlar İttifaqının üzvü**

## "Sirli Azərbaycan – Şərq və Qərb arasında körpü"

### Ölkəmizi alman tələbələrə tanıtmaq üçün yay məktəbi

Azərbaycan Dillər Universitetində sentyabrın 4-dən 14-dək "Sirli Azərbaycan – Şərq və Qərb arasında körpü" mövzusunda yay məktəbi təşkil olunacaq.

Universitetdən bildirilib ki, yay məktəbində ölkəmizdə istənilən ixtisas üzrə təhsil alan, alman dili bilik səviyyəsi (minimum B1) və ingilis dili bilik səviyyəsi (minimum B1) olan tələbələr (bakalavr, magistr) iştirak edə bilərlər.

Yay məktəbinin məqsədi Almaniyanın müxtəlif universitetlərində təhsil alan tələbələrə ölkəmizi tanıtmaqdır. Layihə azərbaycanlı tələbələrə ölkəmiz haqqında ilk təəssürat yaratmaq, müxtəlif sahələr üzrə aktual mövzularda müzakirələrdə iştirak etmək imkanı verəcək, eləcə də Almaniyadan və Azərbaycandan olan iştirakçılar arasında ünsiyyətin qurulmasına, yeni nəzəri və praktik biliklərin əldə olunmasına şərait yaradacaq.

Yay məktəbində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının müxtəlif sahələri (ədəbiyyat, dil, tarix, musiqi, incəsənət, iqtisadiyyat və s.) üzrə yerli və alman ekspertlərin, alim və mütəxəssislərin alman və ingilis dillərində məruzələri dinləniləcək və onların ətrafında müzakirələr aparılacaq.

Yay məktəbində iştirak edəcək tələbə ayrı-ayrı sahələr üzrə intellektual müzakirələr aparmağı bacarmalı, Azərbaycanın tarixi və mədəniyyəti, ictimai həyatı haqqında məlumatlı olmalı, Bakı və Abşeronun tarixi-mədəni guşələrinə və abidələrinə ekskursiyalarda (Qız qalası, Şirvanşahlar sarayı, Yanardağ, Atəşgah, Qobustan və s.) alman dilində bələdçilik etməlidir. Eyni zamanda dostlaşdığı alman tələbəni Azərbaycan ailəsi, məişəti ilə tanış etmək üçün bir axşam evinə qonaq dəvət etməlidir.

Qeydiyyat üçün lazım olan sənədlər avqust ayının 15-dək "Go East Sommerschule 2021" başlığı altında Azərbaycan Dillər Universiteti Germanistika İnstitutunun elektron poçt ünvanına (germanistikinstitutasu1@gmail.com) göndərilməlidir.

## Özbək şairinin "44 gün"ü

### Azərbaycanın Vətən müharibəsindən bəhs edir

Özbəkistanda tanınmış şair Xasiyyət Rüstəmin Azərbaycanın Vətən müharibəsindən bəhs edən "44 gün" kitabı işıq üzü görüb. Kitab Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə çap olunub.




Özbək və Azərbaycan dillərində nəşr olunan kitabın ədəbi məsləhətçiləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və şair-tərcüməçi Fəhriyar, Azərbaycan dilinə tərcüməçiləri Rəhmət Babacan, İntiqam Yaşar və Elşan Əzimdir.

Topluda Azərbaycana həsr olunan "Adı Lalə idi o qızın" poeması, "Rahatsız keçən 44 gün" əsəri, "Yuxuma girir Qarabağ" gündəliyi yer alıb. Həmçinin Xasiyyət Rüstəm haqqında Qənirə Paşayevanın, professor Ramiz Əskərin, şair Əkbər Qoşalının, şair Afaq Şıxlının, həmçinin Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovun və yazıçı Eluca Atalının fikirləri verilib.

## Gənc caz ifaçıları üçün müsabiqə

"Bakı Jazz" Beynəlxalq Caz Festivalı çərçivəsində gənc ifaçılar üçün "İ Am Jazzman!" adlı müsabiqə elan olunub. Müsabiqə 14-30 yaşlı musiqiçilər üçün nəzərdə tutulub.

Seçim turu iki mərhələdən ibarət olacaq, burada peşəkar münsiflər heyəti istiqamət verəcək və iştirakçının musiqi biliklərini qiymətləndirəcək. Müsabiqədə koordinator və müəllimlər işləyəcəklər.

Birinci yerin qalibinə mükafat olaraq min manat məbləğində pul veriləcək.

Müsabiqədə iştirak etmək istəyənlər Nizami 90A, Landmark, 22 mərtəbə ünvanına yaxınlaşaraq müraciət edə bilərlər.

## Xatirə təqvimi — 1–5 avqust

### Azərbaycan

**1 avqust 1896** – Əməkdar incəsənət xadimi, teatr rəssamı və qrafika ustası Həsənağa Hacağa oğlu Mustafayev (1896 – 22.4.1971) anadan olub. Opera və Balet, Musiqili Komediya və b. teatrlarda tamaşalara səhnə tərtibatı verib.

**1 avqust 1908** – Ədəbiyyatşünas, professor Hidayət Əli oğlu Əfəndiyev (1908-1979) Şamaxıda anadan olub.

**1 avqust 1929** – Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor Bağır İbrahimxəlil oğlu Bağırov (1929 – 15.1.2010) anadan olub.

**1 avqust 1934** – Ədəbiyyatşünas alim, professor Xeyrulla Qulam oğlu Məmmədov (1934 – 8.9.2005) Lerik rayonunun Hoveri kəndində anadan olub.

**1 avqust 1948** – Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Ələkbər Yunus oğlu Muradov (1948 – 1.8.2013) Bakıda doğulub. Filmləri: "Qaladan tapılan mücrü", "O dünyadan salam" (operator), "Güllələnmə təxirə salınır" (rejissor) və s.

**1 avqust 1961** – Tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Muxtar oğlu Hüseynli (16.4.1916 – 1961) vəfat edib. Populyar mahnıların müəllifidir.

**1 avqust 1981** – Əməkdar artist Əliheydər (Heydər) Həsənzadə (1913-1981) vəfat edib. Naxçıvan Dövlət Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 avqust 1949** – Xalq artisti, tanınmış qarmon ifaçısı Kamil Səfərəli oğlu Vəzirov (1949 – 13.2.2018) Bakıda doğulub. Azərbaycan Dövlət Mahnı Teatrının solisti olub.

**2 avqust 1969** – Milli səhnəmizin ilk azərbaycanlı qadın müğənnilərindən biri, Xalq artisti Həqiqət Əli qızı Rzayeva (20.5.1907 – 1969) vəfat edib.

**2 avqust 1980** – Görkəmli teatr rejissoru, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Səməd Mənsur oğlu Kazımov (14.1.1923 – 1980) dünyasını dəyişib. Akademik Milli Dram Teatrında baş rejissor işləyib. Gənc Tamaşaçılar, Rus Dram, Musiqili Komediya teatrlarında tamaşalar hazırlayıb.

**2 avqust 1984** – SSRİ Xalq artisti, görkəmli dirijor və bəstəkar Niyazi (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə; 20.8.1912 – 1984) vəfat edib. "Xosrov və Şirin" operası, "Çitra" baleti, "Rast" simfonik muğamı və s. əsərlərin müəllifidir.

**3 avqust 1933** – Əməkdar incəsənət xadimi, dirijor Ləman Həsən qızı Atakişiyeva (1933-2015) Bakıda anadan olub.

**3 avqust 1982** – Şuşa şəhərində görkəmli şairə Xurşudbanu Natəvanın abidəsinin (heykəltəraş – Həyat Abdullayeva) açılışı keçirilib. Mərasimdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev iştirak edib.

**4 avqust 1915** – Görkəmli aktyor, Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov (1915 – 25.1.1984) Gəncədə doğulub. Gəncə Dram, Akademik Milli Dram teatrlarında çalışıb. "Bir qalanın sirri", "Qatır Məmməd", "Nəsimi", "Əhməd haradadır?", "Tütək səsi" filmlərində yaddaqalan obrazlar yaradıb.

**4 avqust 1939** – Əməkdar artist Ofeliya Kamal qızı Məmmədzadə (1939 – 11.7.2007) Bakıda anadan olub. Akademik Dram, Musiqili Komediya teatrlarında çalışıb. Filmlərdə ("Bir cənub şəhərində", "Yenilməz batalyon"), teletamaşalarda maraqlı rollar oynayıb.

**4 avqust 1946** – Xalq artisti Rafiq Eyyub oğlu Hüseynov (1946 – 26.10.2017) Şuşada doğulub. 30 ilə yaxın Azərbaycan Televiziyasının aparıcı diktorlarından biri olub.

**5 avqust 1890** – Opera müğənnisi, Xalq artisti Məmmədtağı Abbas oğlu Bağırov (1890 – 16.4.1961) Bakıda doğulub. 1925-ci ildən Opera və Balet Teatrının solisti olub.

**5 avqust 1896** – Xalq artisti, vokalçı Roman Maksimoviç Trifonov (1896–1966) Saratovda doğulub. 1948-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

**5 avqust 1937** – Xalq artisti, tanınmış skripka ifaçısı Sərvər Soltan oğlu Qəniyev (1937 – 5.9.2010) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti, Qahirə Konservatoriyasında (Misir) kafedra müdiri (1971-1979), 1991-ci ildən Türkiyənin Bilkənd Universitetinin professoru, simfonik orkestrinin bədii rəhbəri olub.

**5 avqust 1950** – Yazıçı-publisist Rafiq Nəzir oğlu Tağı (1950-2011) Masallı rayonunun Xoşçobanlı kəndində doğulub.

**5 avqust 1950** – Teatr və televiziya rejissoru Eyvaz Məsud oğlu Vəliyev (1950–2002) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrında quruluşçu rejissor işləyib.

**5 avqust 1950** – Əməkdar mədəniyyət işçisi, teatrşünas Kəmalə Məmməd qızı Cəfərzadə (1950 – 31.7.2019) anadan olub. Azərbaycan Teatr Xadimləri İttifaqında, Azərbaycan Dövlət Tərcümə Mərkəzində çalışıb.

**5 avqust 1998** – Prezident Heydər Əliyevin sərəncamı ilə Bakıdakı Şəhidlər xiyabanında memorial abidə – "Əbədi məşəl" kompleksi ucaldılıb.

### Dünya

**1 avqust 1819** – Amerika yazıçısı Herman Melvill (Herman Melville; 1819-1891) anadan olub. Əsərləri: "Mobi Dik" romanı, "Con Marr və digər dənizçilər" hekayələr toplusu və s.

**1 avqust 1923** – SSRİ Xalq artisti, məşhur televiziya aparıcısı Valentina Leontyeva (1923-2007) anadan olub.

**1 avqust 1936** – Dünya şöhrətli fransız modelyeri İv Sen Loran (Yves Henri Donat Mathieu-Saint-Laurent; 1936-2008) anadan olub.

**2 avqust 1834** – Fransız memarı Frederik Ogüst Bartoldi (Frederic Auguste Bartholdi; 1834-1904) anadan olub. ABŞ-ın Nyu-York şəhərindəki "Azadlıq" heykəlinin müəllifidir.

**2 avqust 1892** – Amerikanın "Warner Brothers" kinokorporasiyasının qurucularından olan Cek Leonard Vorner (Jack Leonard Warner; 1892-1978) anadan olub.

**2 avqust 1932** – İrland əsilli ingilis aktyoru Piter O'Tul (Peter Seamus O'Toole; 1932-2013) anadan olub. Filmləri: "Milyonu necə oğurlamalı?", "Kaliqula", "Ərəbistanlı Lourens" və s.

**3 avqust 1832** – Xorvat bəstəkarı və dirijoru İvan Zays (1832-1914) anadan olub.

**3 avqust 1994** – Məşhur rus aktyoru, SSRİ Xalq artisti İnnokenti Smoktunovski (1925-1994) vəfat edib. Filmləri: "Hamlet", "Avtomobildən qorun", "Cinayət və cəza", "Ölü canlar" və s.

**4 avqust 1859** – Norveç yazıçısı Knut Hamsun (Pedersen; 1859-1952) anadan olub. "Aclıq" psixoloji romanı yazıçıya şöhrət gətirib. "Torpağın şirəsi" əsərinə görə ədəbiyyat üzrə Nobel mükafatı (1920) alıb.

**4 avqust 1901** – Dünya şöhrətli Amerika caz musiqiçisi, bəstəkar Lui Armstronq (Louis Daniel "Satchmo" Armstrong; 1901-1971) anadan olub.

**4 avqust 1905** – Rus bəstəkarı, SSRİ Xalq artisti Boris Aleksandrov (1905-1994) anadan olub. Keçmiş Sovet İttifaqının (indi Rusiya Federasiyasının) Dövlət himninin musiqisinin müəllifidir.

**5 avqust 1844** – Rus boyakarı və qrafiki İlya Yefimoviç Repin (1844-1930) anadan olub. Məşhur əsərləri: "Burlaklar Volqada", "Tövbədən imtina", "İvan Qroznı və oğlu İvan" və s.

**5 avqust 1850** – Fransız yazıçısı Gi de Mopassan (Henry Rene Albert Guy de Maupassant; 1850 – 6.7.1893) anadan olub. Romanları: "Həyat", "Əziz dost", "Arzu alovu"; novellaları: "Mademauzel Fifi", "Boyunbağı", "Məhəbbət təcrübəsi" və s.

**5 avqust 1860** – İngilis rəssamı Luis Veyn (Louis William Wain; 1860-1939) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

№57 (1834)
30 iyul 2021
www.medeniyyet.az

# Qobustanda "Hindistan mədəni irsinin inciləri"

Qobustan Milli Tarix-Bədii Qoruğunun və Hindistanın Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə Qobustanda "Hindistan mədəni irsinin inciləri" adlı sərgi açılıb.

Qobustan Milli Tarix-Bədii Qoruğundan verilən məlumata görə, sərgi Hindistanın mədəni irsini Azərbaycanda tanıtmaq və iki ölkənin mədəni irsin təbliği sahəsində əlaqələrini inkişaf etdirmək məqsədi daşıyır.

Tədbirdə Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev iki ölkə arasında əlaqələrdən danışıb. Bildirib ki, 2022-ci ildə Hindistan müstəqilliyinin 75 illiyini qeyd edəcək və yubileylə bağlı tədbirlərə bu ildən start verilib. Qobustan qoruğunda "Hindistan mədəni irsinin inciləri" adlı sərgi də bu yubileyə töhfə olaraq təşkil edilib. Direktor sərginin iki ölkə arasında mədəni irs sahəsində əlaqələrin daha da genişlənməsinə təkan verəcəyinə inamını ifadə edib.






Hindistanın Azərbaycandakı səfiri Bavitlunq Vanlalvavna ölkəsinin müstəqilliyinin 75 illiyinin eyni zamanda Hindistan xalqının tarixini, mədəniyyətini və qazandığı uğurlarını diqqətə çatdıran bir festival şəklində qeyd ediləcəyini deyib. Diplomat Qobustanda açılan sərginin də buraya gələn ziyarətçilərə Hindistanın zəngin mədəni irsini təqdim edəcəyini və ölkələrimiz arasında mədəni bağlantı rolunu oynayacağını bildirib.

Səfir Qobustan qoruğunun Hindistanın ən məşhur tarixi abidə və məkanlarının əks olunduğu sərgi üçün çox uyğun bir məkan olduğunu vurğulayıb. Qeyd edib ki, sərgidə yer alan 16 şəkil-plakat məşhur Tac-Mahal, Qırmızı qala və Cənubi Hindistanın məbədləri kimi məkanları əhatə edir. Qobustan qoruğu kimi bu məkanlar da UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Diplomat Hindistanın ümumilikdə 40 tarixi abidə və mədəni məkanının UNESCO-nun siyahısında olduğunu diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndəsi Ağacavid Ramazanov mədəni irsin hər bir xalqın, dövlətin tarixinin elmi cəhətdən öyrənilməsi işində mühüm mənbələrdən biri olduğunu qeyd edib. O, sərgini zəngin dəyərlərə malik olan Hindistanla mədəni yaxınlıq və bu sahədə əməkdaşlıq baxımından yüksək qiymətləndirib.

Sonra Hindistanın tarix və mədəniyyət abidələrini əks etdirən videoçarx təqdim olunub. İştirakçılar Hindistan musiqisinin sədaları altında sərgi ilə tanış olub, Azərbaycan milli şirniyyatları və Hindistanın milli mətbəxinə aid təamların dadına baxıblar.

Qobustan qoruğunda "Hindistan mədəni irsinin inciləri" adlı sərgi avqustun sonunadək davam edəcək.

# Meksikalı jurnalistin azad Qarabağdan təəssüratı




Meksikanın "Contra-Replica" və "Valija Diplombtica" qəzetlərində jurnalist Federiko Lamontun Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər təəssüratları barədə məqalələri dərc olunub.

"Şuşa – Azərbaycanın azadlıq simvolu" və "Qarabağ odlar diyarı Azərbaycanındır!" başlıqlı məqalələrdə müəllif Cəbrayıl, Füzuli, Gəncə, Ağdam və Şuşa şəhərlərinə səfərindən söz açır. Jurnalist yazılarında Şuşanın hərbi-strateji əhəmiyyətindən, habelə ölkəmiz üçün daşıdığı tarixi, mədəni və rəmzi önəmdən danışır və şəhərin işğaldan azad edilməsinin Azərbaycanın ərazi bütövlüyünün bərpasının simvoluna çevrildiyini qeyd edir.

Sonra 44 günlük müharibə zamanı Ermənistanın mülki azərbaycanlıları hədəf alaraq hərbi əməliyyatların aparıldığı bölgədən kənarda yerləşən Gəncə şəhərinə gecə saatlarında raket zərbələri endirdiyi, bu zaman qadınlar və uşaqlar da daxil olmaqla onlarla insanın həlak olduğu, yüzlərlə insanın yaralandığı bildirilir.

Məqalələrdə Cəbrayıl və Ağdam şəhərlərinin erməni vandalizminə məruz qaldığı və buradakı yaşayış infrastrukturu və tarixi-mədəni abidələrin tamamilə darmadağın edildiyi haqqında məlumat verilir.

Yazılarda otuz ilə yaxın işğal altında saxlanılmış ərazilərdə Ermənistanın apardığı kütləvi minalanmadan da bəhs edilir, 2020-ci ilin 10 noyabr tarixində əldə olunmuş atəşkəs razılaşmasından sonra orada hərbi və mülki azərbaycanlının erməni silahlı qüvvələrinin basdırdığı minaların partlaması səbəbindən həyatını itirdiyi diqqətə çatdırılır.

# Dünya İrsi Siyahısı yeni abidə və məkanlarla zənginləşir

Çinin Fuçjou (Fuzhou) şəhərinin ev sahibliyində 16 iyulda başlanan UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyası iyulun 31-də işini başa vuracaq. Ötən il pandemiya səbəbindən ertələnən və bu il də eyni səbəbdən onlayn formatda təşkil olunan sessiyanın gündəliyində Dünya İrsi Siyahısına irəli sürülmüş ümumilikdə 42 nominasiya var. Qəzetimizin ötən saylarında siyahıya daxil edilən bir sıra nümunələr haqqında məlumat vermişdik.



Sessiyada Dünya İrsi Siyahısına daxil edilən abidələr sırasında Səudiyyə Ərəbistanının Nəcran bölgəsindəki Hima tarixi ərazisi də var. Həcc ziyarətinə gedən zəvvarların karvan yolunun üzərindəki bu yerdə qədim bədəvi qəbilələrinin və səyahətçilərin çəkdikləri unikal qayaüstü rəsmləri və yazılar mövcuddur. Qədim heroqliflər musnad, tamud, nabateya qəbilələrinə və erkən ərəb mədəniyyətinə məxsusdur. Hima tarixi rayonu Səudiyyə Ərəbistanının UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş altıncı irs nümunəsidir.

Qeyd edək ki, Dünya İrsi Siyahısı UNESCO-nun "Dünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il Konvensiyası əsasında tərtib edilib. Siyahıya daxil edilən müstəsna universal dəyərə malik olan abidə və məkanlar ümumbəşəri irs elan edilir. Hazırkı sessiyayadək bu siyahıda 1121 obyekt vardı ki, onların 869 mədəni, 213-ü təbiət, 39-u isə qarışıq abidədir.

Xatırladaq ki, Azərbaycandan "Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhər" (2000), "Qobustan qaya sənəti mədəni landşaftı" (2007) və "Xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi" (2019) nominasiyaları Dünya İrsi Siyahısına daxil edilib.

# Əhalinin 70 faizinin peyvəndlənməsi şərtdir

## İspaniya koronavirus əleyhinə vaksinasiya üzrə liderdir



İspaniya dünyada əhalinin ən sıx yaşadığı 50 ölkə arasında koronavirus əleyhinə vaksinləmə üzrə ilk sıradadır. İspaniya Səhiyyə Nazirliyinin hesabatına görə, ölkənin 25,9 milyon sakini artıq tam vaksinləmədən (2 doza) keçib və bu, əhalinin 55,4 faizini təşkil edir. Bildirilir ki, vaksinləmə planı əhalinin daha həssas qrupunun müdafiəsinə və xəstəxanaya yatırılma hallarının azaldılmasına şərait yaradıb.

İspaniyanın Baş naziri Pedro Sançes vəd edib ki, əgər bu temp saxlanılsa, avqustun sonunadək əhalinin 70 faizi tam peyvəndləmədən keçə bilər.

Almaniyada da əhalinin 50 faizindən çoxuna koronavirus əleyhinə vaksinin iki komponenti vurulub. Ölkənin səhiyyə naziri Yens Şpan bildirib ki, iyulun 28-dək Almaniya əhalisinin hər iki nəfərindən biri (50,2 faiz və ya 41,8 milyon nəfər) koronavirusdan qoruma ilə təmin olunub, vətəndaşların 61,1 faizinə (50,85 milyon nəfər) isə bir peyvənd dozası vurulub. "Nə qədər çox insan vaksinasiyadan keçsə, payız və qış daha təhlükəsiz olacaq", - deyə o vurğulayıb.

# Yeri yerindən oynadan səs

Yaponiyanın Tokio Universitetinin tədqiqatçı mühəndisləri ilk dəfə səs vasitəsilə əşyaları havaya qaldırmağa nail olublar.



"Japanese Journal of Applied Physics" nəşrinin məlumatında bildirilir ki, əşyalara toxunmadan onları hərəkətə gətirmək bir çox sahələr, məsələn, biotibbi mühəndislik üçün mühüm əhəmiyyətə malikdir. Hazırda bu lazer pinsetlər vasitəsilə edilir. Lazerin yaratdığı təzyiq obyektin yerini dəyişməyə imkan verir. Lakin bu üsul yalnız həddindən artıq kiçik əşyalara tətbiq edilə bilir.

Mühəndislərin rəyinə görə, akustik pinset bu məsələdə daha səmərəli rol oynaya bilər. Bu üsulla daha böyük əşyaları millimetr dəqiqliyi ilə hərəkət etdirmək mümkündür.

Akustik pinseti hərəkət etdirmək üçün "səs teləsi" lazımdır, səs dalğalarını real zaman çərçivəsində idarə etmək isə çox çətindir. Lakin layihənin müəllifləri yarımdairə şəkilli akustik qəfəs yaradaraq, onun vasitəsilə 3 millimetr diametrində dairəni səthdən ayırmağa nail olublar.

Alimlər bildiriblər ki, ultrasəs dəyişdiricilərdən istifadə edərək onu bloklara ayırıblar. Bu zaman geri qaytarma filtri səslərin akustik dalğalar şəklində istifadəsinə şərait yaradır. Nəticədə hər akustik sahənin əmələ gəlməsi üçün lazımi fazaya və amplitudaya təsir göstərmək imkanı əldə olunur.

Müəlliflər qeyd edirlər ki, dairəni akustik tələyə salmaq çətin olduğuna görə, belə yanaşma heç də tam etibarlı deyil. Lakin bu təcrübə gələcək tədqiqatlar üçün istiqamətləri təyin etməyə zəmin yaradır.

**CAVİD**

# "Sənətin ardınca gəl"

## Tahir Salahovun məşhur əsəri Rusiyada art-logistika şirkətinin layihəsində

Rusiyada fəaliyyət göstərən "Fine Art Way" art-logistika şirkəti başladığı yeni layihə ilə dünya şöhrətli azərbaycanlı rəssam Tahir Salahovun xatirəsini yad edib. Rəssamın 1961-ci ildə çəkdiyi monumental "Sənə, bəşəriyyət!" rəsm əsəri şirkətin incəsənət əsərlərini daşıyan xüsusi avtomaşını üzərində nümayiş etdirilir.



Bununla bağlı məlumatda diqqətə çatdırılır ki, incəsənət əşyalarının daşınması ilə məşğul olan şirkət incəsənətin özünü də təbliğ etmək, irəli aparmaq qərarına gəlib. "Follow Art" ("Sənətin ardınca gəl") layihəsi bu məqsədə xidmət edir. Layihənin məramı isə onun adında ifadə olunub. Sənət əsərlərinin muzey və qalereyalara daşınması üçün nəzərdə tutulan xüsusi nəqliyyat vasitələri eyni zamanda onların hər kəsin görə biləcəyi nümayiş yerinə çevrilir.

"Fine Art Way" şirkətindən bildiriblər ki, hazırda layihə üçün məşhur rəssamların adı verilmiş üç xüsusi avtomobil ayrılıb. Layihədə istifadə olunan ən böyük avtomobil – doqquz metr uzunluğunda art-trak "Salahov" adını daşıyır. Avtomobilin üzərində Tahir Salahovun ən məşhur əsərlərindən birinin – "Sənə, bəşəriyyət!" tablosunun (180 × 594 sm) reproduksiyasının əks olunması bu yaxınlarda dünyadan köçmüş sənətkara ehtiram və minnətdarlıq əlamətidir.

Tahir Salahovun bu əsəri ilk dəfə 1961-ci il aprelin 12-də, Yuri Qaqarin kosmosa uçan gün Bakıda təşkil edilmiş respublika bədii sərgisində nümayiş etdirilib. Rəssam əsər üzərində 1959-cu ildə, insanın kosmosa uçuşundan iki il əvvəl işləməyə başlamışdı. Tablo hazırda Bakıda, Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

# Gənc fotoqrafın fərdi sərgisi

İyulun 31-də İçərişəhərdəki "NUR Art House" qalereyasında gənc fotoqraf Tural Rəhmanlının "Mənim yolumda" adlı fərdi sərgisi açılacaq.



"Bakı Küçə Fotoqrafiyası Festivalı"nın təqdim etdiyi sərginin ekspozisiyasında müəllif tərəfindən Türkiyədə, Ukraynada və Azərbaycanda çəkilmiş kadrlar yer alıb. Bu, müəllifin Azərbaycanda ilk fərdi sərgisidir.

Tural Rəhmanlı küçə fotoqrafiyası janrında çəkən nadir fotoqraflardan biridir. Müəllif insanların problemlərində özünəməxsus gözəlliyi və estetikanı görərək tamaşaçılara onları nəzərdən keçirməyi təklif edir. Sərginin kuratoru Xalid Zeynalovdur.

Sərgi avqustun 9-dək nümayiş olunacaq.

# "Eurovision 2022" üçün 17 şəhər namizəddir

Gələn ilin may ayında İtaliyada keçiriləcək "Eurovision 2022" mahnı müsabiqəsinə ev sahibliyi etmək üçün 17 şəhər müraciət edib. Namizədlər arasında Bolonya, Genuya, Florensiya, Milan, Roma, Turin və Triest kimi region paytaxtları ilə yanaşı, Alessandriya, Matera, Pezaro, Rimini və Viterbo kimi kiçik əyalətlərin mərkəzi şəhərləri də var.




Namizəd şəhərlərə öz təkliflərini təqdim etmək üçün tələb olunan detallı tələblər artıq göndərilib. Tələblər arasında təşkilatçı şəhərə ən yaxın beynəlxalq aeroportun maksimum 90 dəqiqəlik məsafədə olması, konsert arenasının 8-10 min tamaşaçı üçün nəzərdə tutulması və həmin məkanın azı doqquz həftə boyunca mahnı müsabiqəsinin sərəncamında olması, ətraf ərazilərdə ümumilikdə azı 2 min hotel otağının sifariş üçün sərəncamda olması kimi texniki detallar yer alıb.

RAİ dövlət televiziyası Avropa Yayım İttifaqı (EBU) ilə birlikdə avqust ayının sonunadək namizədlər arasında ən münasib şəhəri seçəcək.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1377
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.